

"Qarabağın qalan hissəsi Azərbaycanın nəzarətinə qayıdacaq"

15

# Qazaxıstan-Azərbaycan dostluq, qardaşlıq münasibətləri yeni mərhələdə!

2



Səs
№ 152 (6593) 25 avqust 2022-ci il. Qiyməti 60 qəpik

# Azərbaycanın haqqı!



9

*Erməni cəmiyyəti çox qəribədir. Mövqeyini müəyyənləşdirmək o qədər də asan deyil. Bu gün sevdiyinə sabah nifrət edir, bu gün topa tutduğunu da sabah elə əzizləyir ki, çaşıb qalırsan. Ermənistan cəmiyyətinin Paşinyana olan münasibətini heç analiz etmisinizmi? Bütün günümüzü siyasi xəbərlərin içində keçiririk, amma Paşinyana nifrətmi edirlər, yaxud sevirlər, hələ də müəyyənləşdirmək mümkün deyil...*

# Bizim Mehriban - Xalqın gözündə

5



## Qazaxıstan mediası: "Azərbaycan enerji resurslarının Asiyadan Avropaya nəql edilməsində körpü rolu oynayır"



inbusiness.kz

Все дороги ведут... через Баку

Новое – это хорошо забытое старое

4

## Sərsəng Azərbaycandır: Laçın, Zabux, Sus artıq bizimdir!




## Öz-özündən bezən erməni cəmiyyəti

14



## Natalia Vovk cinayətə məcbur edilib..?

13



*Daria Duginanın avtomobilini partlatmaqda ittiham olunan qızın- Natalia Vovkun valideynləri varislərinin günahkar olduğuna inanmaqdan imtina edirlər.*



## "Avtomobil sahibi açarı əmin olmadığı adama niyə verməlidir?!"

16

*"Maşınımızı icazəsiz sürüb qəza törətsələr, sığorta pulu kimdən alınmalıdır? Belə olan halda sığorta şirkətləri ödəniş həyata keçirirlər və sonradan həmin o icazəsiz avtomobili sürüb zərər...*



## Artmaqda olan meşə yanğınlarının qarşısını necə almalıyıq?

11

*Dünyada elm və texnikanın inkişafı, istər-istəməz insanların ölümü, maddi sərvətlərin məhv edilməsi, ətraf mühitin kobud şəkildə pozulması halları ilə nəticələnən hadisələrdən yan keçmir.*

# Qazaxıstan-Azərbaycan dostluq, qardaşlıq münasibətləri yeni mərhələdə!

***Dünən Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin rəsmi qarşılanma mərasimi olub. Prezident İlham Əliyev Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevi qarşılayıb. Rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev ilə təkbətək görüşü olub.***



Prezident İlham Əliyev: Hörmətli cənab Prezident, Azərbaycana xoş gəlmisiniz. Sizi görməyimə çox şadam. Əminəm ki, səfəriniz çox uğurlu keçəcək və Qazaxıstan-Azərbaycan dostluq, qardaşlıq münasibətləri yeni yüksək pilləyə qalxacaqdır.

Sizin səfərinizə çox böyük önəm veririk. Əminəm ki, səfərin çox gözəl nəticələri olacaqdır. Bir daha xoş gəlmisiniz.

Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev: İlk növbədə, göstərilən qonaqpərvərliyə görə Sizə təşəkkür etmək istəyirəm. Qazaxıstanın Prezidenti kimi Sizin ölkənizə ilk dəfə rəsmi səfərə gəlməyimə şadam. Əlbəttə, bugünkü səfər mənim üçün xüsusi əhəmiyyət kəsb edir. Bugünkü danışıqların yekunlarına əsasən bir sıra sənədlər imzalanacaq. Əminəm ki, həmin sənədlər ikitərəfli əməkdaşlığı, Qazaxıstan-Azərbaycan münasibətlərini yeni səviyyəyə çatdıracaq.





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev tərəfindən Qazaxıstanın "Altın kıran" - "Qızıl qartal" ali ordeni təqdim olunub. Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev çıxış edib:

-Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Heydər oğlu.

Bu gün mən Sizin ölkənizə böyük məmnuniyyətlə rəsmi səfər edirəm. Biz məhdud tərkibdə çox səmərəli görüş keçirdik. Mənim səfərimin proqramına Sizin Qazaxıstan Respublikasının "Altın kıran" ali ordeni ilə təltif edilməyiniz mərasimi də daxildir. Qazaxıstanda Sizi görkəmli dövlət xadimi, bütün dünyada Azərbaycanı tarixi Zəfərə, Təhlükəsizlik Şurasının qətnamələrinə tam müvafiq olaraq ərazi bütövlüyünün bərpa edilməsinə gətirib çıxarmış şəxsiyyət kimi tanıyır, ehtiram bəsləyir, hörmət edirlər. Bu münasibətlə Sizi bu gün şəxsi görüşümüz zamanı təbrik etmişəm. Siz dövlətlərimiz arasında çoxtərəfli, çoxşaxəli əməkdaşlığın inkişafına böyük töhfə verirsiniz. Bütün qazax xalqı adından ehtiram əlaməti olaraq bu gün Sizə "Altın kıran" ordenini təqdim etmək istərdim.

**"Bizim xalqlarımızı ortaq tarix, ortaq köklər bağlayır. Bu gün Qazaxıstan və Azərbaycan müstəqillik yolunda inamla irəliləyən iki müstəqil dövlət kimi iqtisadiyyatın inkişafında, sosial məsələlərin həllində yüksək sürət nümayiş etdirir"**

Sonra Azərbaycan Prezidenti İlham Əliyevin Qazaxıstan Respublikası ilə Azərbaycan Respublikası arasında ikitərəfli siyasi, iqtisadi və mədəni münasibətlərin möhkəmlənməsinə və inkişafına xüsusi töhfəsinə görə "Altın kıran" ordeni ilə təltif edilməsi haqqında Qazaxıstan Prezidentinin Fərmanı oxunub.

Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev "Altın kıran" ordenini Azərbaycan Prezidenti İlham Əliyevə təqdim edib.

Prezident İlham Əliyev:

-Möhtərəm Kasım-Jomart Kemeleviç, mənim əməyimi yüksək qiymətləndirdiyinizə görə Sizə səmimi qəlbdən təşəkkür etmək istərdim. Mən çox fəxr edirəm ki, Siz məni qardaş ölkə olan Qazaxıstanın ali ordeni ilə təltif etməyi lazım bilmisiniz. Bundan sonra da bizim dostluq və qardaşlıq münasibətlərinin inkişafına töhfə vermək üçün öz tərəfimdən əlimdən gələni edəcəyəm.

Bizim xalqlarımızı ortaq tarix, ortaq köklər bağlayır. Bu gün Qazaxıstan və Azərbaycan müstəqillik yolunda inamla irəliləyən iki müstəqil dövlət kimi iqtisadiyyatın inkişafında, sosial məsələlərin həllində yüksək sürət nümayiş etdirir, dünya arenasında ölkələrimizin nüfuzu artır. Mən bu mükafatı bütün Azərbaycan xalqına hörmət əlaməti hesab edirəm. Bu mükafatı Siz təqdim etdiyinizə görə xüsusi qürur duyuram. Sizin qeyd etdiyiniz kimi, bu gün biz, ikitərəfli gündəliyin bir çox məsələlərinə və beynəlxalq inkişaf məsələlərinə dair ətraflı söhbət etdik. Mən artıq demişəm, bir daha təsdiqləmək istəyirəm ki, Sizin yürütdüyünüz islahatlar kursunu tamamilə dəstəkləyirik. Sizin yürütdüyünüz siyasət Qazaxıstanın, Qazaxıstan xalqının milli mənafelərinə tamamilə uyğundur. Artıq qazanılmış uğurlar Sizin seçdiyiniz kursun düzgün olmasına dəlalət edir. Qazaxıstan xalqının bu kursu dəstəkləməsi bir daha onu göstərir ki, bizə qardaş olan Qazaxıstan düzgün yolla gedir. Əminəm ki, Siz qarşıya qoyduğunuz bütün hədəflərə çatacaqsınız. Lakin bu yüksək mükafat mənim əlbəttə ki, münasibətlərimizin möhkəmləndirilməsi yolunda bundan sonrakı fəaliyyətimdə üzərimə vəzifələr qoyur. Əmin ola bilərsiniz ki, Qazaxıstan ilə münasibətlər bundan sonra da Azərbaycanın xarici siyasətində prioritet olacaq. Bu yüksək mükafata görə bir daha təşəkkür edirəm.

Avqustun 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev Qazaxıstanın "Bİ-Group" Holdinqi tərəfindən Füzuli şəhərində uşaqlar üçün inşa ediləcək Kurmanqazı adına Yaradıcılığın İnkişafı Mərkəzinin layihəsi ilə tanış olublar. "Bİ-Group" Holdinqin Direktorlar Şurasının sədri Aydın Raximbayev dövlət başçılarına layihə barədə məlumat verib.

Prezident İlham Əliyevin Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev ilə geniş tərkibdə görüşü keçirilib. Dövlət başçıları görüşdə çıxış ediblər.

Prezident İlham Əliyev öz çıxışında qeyd edib ki, Qazaxıstanın Azərbaycana hədiyyəsi - işğaldan azad edilmiş ərazilərdə tikiləcək Uşaqların Yaradıcılığının İnkişafı Mərkəzi bizim xalqımıza qardaşcasına münasibətin daha bir təzahürü, hazırda bizim hamımızın məşğul olduğumuz Qarabağın bərpası işinə töhfədir.

*Ardı Səh. 3*

# Qazaxıstan-Azərbaycan dostluq, qardaşlıq münasibətləri yeni mərhələdə!

Əvvəli-Səh-2

"İkitərəfli gündəliyə gəldikdə, o, kifayət qədər genişdir. Sizin səfəriniz ərəfəsində müvafiq strukturlar bir çox məsələlər üzərində hərtərəfli iş aparıblar, 20-dən artıq sənədin imzalanmasına doğru gedirik - onların bir qismi bizim iştirakımızla imzalanacaq və qarşılıqlı fəaliyyətin möhkəmlənməsinə ciddi kömək edəcək.

Xarici siyasətin gündəliyinə gəldikdə isə biz, iştirak etdiyimiz aparıcı beynəlxalq təşkilatlarda geniş əhatəli məsələlər üzrə fəal əməkdaşlıq edirik, daim bir-birimizi dəstəkləyirik və əminəm ki, bu, gələcəkdə də davam edəcək. Çünki bizim əməkdaşlıq etdiyimiz beynəlxalq təşkilatların sayı kifayət qədər çoxdur və hər yerdə Qazaxıstan və Azərbaycan nümayəndələri sıx qarşılıqlı fəaliyyətdədirlər.



Əlbəttə, nəqliyyat-logistika infrastrukturunun inkişafı ilə bağlı böyük planlar var. Bu infrastrukturun yaradılması üçün həm Qazaxıstanda, həm də Azərbaycanda vaxtında tədbirlər görülüb. İndi ölkələrimiz arasında yük axınının birləşdirilməsi və onun həcminin artırılması, ölkələrimizin tranzit potensialının yüksəldilməsi barədə söhbət gedir. Müvafiq orqanlar artıq müəyyən vaxtdır ki, bu istiqamətdə aktiv qarşılıqlı fəaliyyət göstərirlər. Fikrimcə, Orta Dəhliz çox böyük perspektivə malikdir və əlbəttə, bu layihənin həyata keçirilməsində Qazaxıstanın və Azərbaycanın çox mühüm rolu var.

Əminəm ki, biz iqtisadi-ticari münasibətlərin inkişafına da təkan verəcəyik. Əmtəə dövriyyəsinin artırılması üçün hələ böyük ehtiyatlar var. Bu gün biz gələcək iqtisadi-ticari əməkdaşlığın bəzi istiqamətləri barədə fikir mübadiləsi apardıq, qarşılıqlı tədarüklərin artırılması baxımından onu konkretləşdirə bilərik. İnvestisiya sahəsində də böyük perspektivlər var. Həm Qazaxıstanda, həm də Azərbaycanda çox müsbət investisiya mühiti, xarici investisiyaların böyük həcmi var. Düşünürəm ki, bizim bu istiqamətdə də səylərimizi birləşdirməyin, Azərbaycanda, Qazaxıstanda, ola bilsin, başqa ölkələrdə də birgə investisiya layihələrində iştirak etməyimizin vaxtı yetişib.

Qazaxıstanın Azərbaycana bugünkü hədiyyəsi - Uşaqların Yaradıcılığının İnkişafı Mərkəzi ölkələrimiz arasında humanitar əməkdaşlığın daha bir elementidir. Bu əməkdaşlıq da uğurla inkişaf edir. İki gün bundan əvvəl Sumqayıtın mərkəzi küçələrinin birinə qazax xalqının görkəmli oğlu, maarifçi, türkoloq Əhməd Baytursunovun adı verilib. Bu da bizim əcdadlarımıza hörmətin əlamətlərindən biridir."

Prezident Kasım-Jomart Tokayev:

-Təşəkkür edirəm, hörmətli İlham Heydər oğlu.

Əziz həmkarlar, ilk növbədə, gözəl, bənzərsiz Bakı şəhərinə, - biz Xəzərin mənzərələrinə tamaşa etdik, - səfərə dəvətə və göstərilən qonaqpərvərliyə görə minnətdarlığımı bildirmək istərdim.

Məhdud tərkibdə görüşdən tamamilə məmnunam. Biz bu görüşdə əməkdaşlığın müxtəlif sahələrində dövlətlərimizin qarşılıqlı fəaliyyətinin demək olar bütün məsələlərinə dair ətraflı fikir mübadiləsi apardıq. Qazaxıstan və Azərbaycan bir-birinə yaxın dövlətlərdir, biz strateji tərəfdaşlarıq, müttəfiqlərik. Sevindirici haldır ki, bu gün ölkələrimiz arasında strateji tərəfdaşlığın və müttəfiqlik qarşılıqlı münasibətlərinin dərinləşməsi haqqında Bəyannamə imzalanacaq.



Mən Bakıya xüsusi missiya ilə gəlmişəm - əməkdaşlığımızı yeni səviyyəyə çatdırmaq missiyası. Sevindirici haldır ki, son illərdə ticarətin həcmi praktiki olaraq 3 dəfə artıb. Lakin qeyd etmək istərdim ki, bu, arxayınlaşmağa əsas vermir, çünki fikrimcə, ticarəti artırmaq üçün hər halda imkanlar var. Ölkələrimizin hökumətləri məhz bu istiqamətdə işləməlidirlər ki, mənim fikrimcə, artıq lap yaxın vaxtlarda biz ölkələrimiz arasında ticarətin həcmini bir milyard dollara çatdıra bilək.

Siz düzgün qeyd etdiniz ki, Qazaxıstan və Azərbaycan əsas beynəlxalq məkanlarda, ilk növbədə, Birləşmiş Millətlər Təşkilatında, ATƏT-də, Türk Dövlətləri Təşkilatında bir-biri ilə səmərəli qarşılıqlı fəaliyyət göstərir. Bu baxımdan ölkələrimiz arasında hər hansı problem yoxdur. Bu da sevindirici haldır ki, dövlətlərimizin parlamentləri bir-biri ilə sıx əməkdaşlıq edir. Müasir şəraitdə bu, çox vacibdir.

Bu məsələdə də Sizinlə razıyam ki, humanitar əməkdaşlıq vacibdir. Burada çox böyük imkanlar var. Fikrimcə, gələn il ölkələrimizin hökumətləri arasında razılaşma əsasında, əvvəllər deyildiyi kimi, Qazaxıstanda Azərbaycan mədəniyyəti ongünlüyü keçirə bilərik. Sizin mədəniyyətə böyük maraq qalmaqdadır. Güman edirəm ki, bizim insanlar Azərbaycan mədəniyyəti üçün darıxıblar və biz Azərbaycan mədəniyyətinin görkəmli nümayəndələrini öz ölkəmizdə böyük məmnuniyyətlə qəbul edə bilərik.

Bir faktı xüsusi qeyd etmək istərdim ki, Sizin güclü, nüfuzlu rəhbərliyinizlə Azərbaycan sosial-iqtisadi inkişafda çox böyük nəticələr qazanır. Mən statistikanı diqqətlə nəzərdən keçirdim, bu, güclü təsir bağışlayır. İqtisadiyyat inamla artır. Mən belə başa düşdüm ki, cari ilin birinci rübündə ümumi daxili məhsul təqribən 7,5 faiz artaraq 23,5 milyard dollara çatıb. Yəni, Azərbaycanın iqtisadi inkişaf perspektivləri çox yaxşıdır. Əlbəttə, burada Azərbaycan xalqının ümummilli lideri kimi Sizin tarixi xidmətiniz var.



İndicə dediyim kimi, Qazaxıstanda Sizə çox böyük hörmət bəsləyirlər, insanlar Sizi tanıyır, dəstəkləyir, səmimi hörmət bəsləyirlər. Bununla əlaqədar bütün xalqımız adından Sizə bu gün orden təqdim etməyi zəruri saymışam. Məhz Sizin güclü, nüfuzlu rəhbərliyinizlə Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi kimi tarixi əhəmiyyətli vəzifə yerinə yetirilib. Bildiyiniz kimi, Qazaxıstan Azərbaycana münasibətdə dövlətlərin ərazi bütövlüyü prinsipini həmişə dəstəkləyib. Hesab edirəm ki, bu ədalətli prinsip müasir beynəlxalq hüquqa tamamilə müvafiqdir. Ona görə burada da eyni mövqe, eyni yanaşmalar, ortaq baxışlar var. Hesab edirəm ki, bu, gələcəkdə bizim əməkdaşlığımızın inkişafı üçün yaxşı əsas olacaq.

Bu əməkdaşlığın yekunlarına və ya nəticələrinə gəldikdə, mən əsla şübhə etmirəm ki, onlar müsbət olacaq. 1990-cı illərdə dövlətlərimiz arasında problemlər var idi. Mən o dövrü xatırlayıram və əlbəttə, Sizin də yadınızdadır, bugünkü mövqedən həmin problemlər çox cüzi, çox kiçik idi, amma onlar var idi. Yadımdadır, biz 8 milyon dollar məbləğində borc problemini müzakirə edirdik. Belə bir problem var idi. Bu gün biz heç də təsadüfən demirik ki, əməkdaşlığımız strateji xarakter daşıyır. Ona görə ki, bunlar, sadəcə, gurultulu sözlər deyil, əməkdaşlıq özü onun həcmi baxımından məhz belə xarakter daşıyır.

Əlbəttə, Azərbaycan nəqliyyat dəhlizlərinin inkişafı baxımından Qazaxıstan üçün xüsusi maraq doğurur. Şübhəsiz, burada üstünlük Azərbaycana məxsusdur. Əlbəttə, düşünürəm ki, Qazaxıstanın bir dövlət kimi, - faktiki olaraq biz Xəzər sahillərində yanaşı yerləşən qonşu ölkələrik, - burada çox yaxşı perspektivləri var. Mən hökuməti, müvafiq idarələri nəqliyyat-logistika əlaqələrinin inkişafı baxımından Sizin nümayəndələrlə sıx qarşılıqlı fəaliyyətə və birgə işə istiqamətləndirirəm.

Geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin iştirakı ilə Azərbaycan-Qazaxıstan sənədləri imzalanıb. "Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında 2022-2026-cı illər üzrə əməkdaşlığın inkişaf etdirilməsi haqqında Kompleks Proqram"ı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev imzaladılar.

"Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında strateji münasibətlərin möhkəmləndirilməsi və müttəfiqlik qarşılıqlı fəaliyyətinin dərinləşdirilməsi haqqında Bəyannamə"ni Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev imzaladılar. Bundan əlavə bir sıra mühüm sənədlər də imzalanıb. Sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev mətbuata bəyanatlarla çıxış ediblər.

# Azərbaycan və Qazaxıstan prezidentləri Dənizkənarı Milli Parkda qurulmuş “Qazax yurtası” ilə tanış olublar





***Avqustun 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev Azərbaycan-Qazaxıstan diplomatik əlaqələrinin 30 illiyi münasibətilə Dənizkənarı Milli Parkda qurulmuş "Qazax yurtası" ilə tanış olublar. Qazax xalqının milli geyimində olan qızlar dövlət başçılarını çörəklə qarşılayıblar. Prezidentlərə yurta barədə məlumat verilib.***

Bildirildi ki, avqustun 1-də açılan ”Qazax yurtası”nda dost və qardaş ölkənin turizm potensialı təqdim edilir. Avqustun 31-dək davam edəcək bu aksiyada ”Welcome to KZ” informasiya-turizm mərkəzi tərəfindən ziyarətçilərə Qazaxıstanın müasir istirahət mərkəzləri, tarixi və adət-ənənələri, ”Qazaxıstan” mehmanxanası, ”Şımbulak” dağ-xizək kurortu, ”Air Astana” aviaşirkəti, ”Baykonur” kosmodromu, ”Kıran” milli şahin ovu mərkəzi və digər turizm məkanları ilə bağlı ətraflı məlumat verilir, təqdimatlar nümayiş olunur, mədəni, konsert və əyləncə proqramları keçirilir. Yurta ziyarətçilərin Qazaxıstanın müasir inkişafı, mədəni və gəzməli-görməli yerləri, ölkənin tarixi və ənənələri ilə tanış olmaq, qədim köçərilərin dünyasına daxil olmaq, Böyük Çöl ölkəsinin melodiyalarını dinləmək, milli təamlarının dadına baxmaq imkanı yaradır.

Tanışlıq zamanı bildirildi ki, ənənəyə görə qazax milli süfrəsi ən hörmətli qonaqlar üçün açılır.

Qeyd edək ki, çoxəsrlik dostluq tellərinə və ümumi tarixə malik iki qardaş xalqın mənəvi yaxınlaşmasına və mədəni qarşılıqlı zənginləşməsinə yönələn bu tədbirlər Qazaxıstan səfirliyinin, ”Discover Almaty” turizm şirkətinin, ”Air Astana” aviaşirkətinin və Qazaxıstanın Azərbaycandakı Ticarət Evinin dəstəyi ilə təşkil olunub. Prezident İlham Əliyev və Prezident Kasım-Jomart Tokayev qazax musiqi qrupunun ifasını dinləyiblər.

# Qazaxıstan mediası: ”Azərbaycan enerji resurslarının Asiyadan Avropaya nəql edilməsində körpü rolu oynayır”

***Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin Azərbaycan Respublikasına səfəri ərəfəsində Qazaxıstanın bir sıra kütləvi informasiya vasitələrində bu səfər və iki ölkənin münasibətləri barədə materiallar dərc edilib.***

Belə ki, ”Kazinform” beynəlxalq informasiya agentliyinin saytında, ”BaigeNews.kz”, ”LS”, ”QMonitor”, ”Inbusiness.kz” və başqa saytlarda bu səfərin böyük əhəmiyyəti qeyd edilir.

”Kazinform”un saytında dərc olunmuş ”Qazaxıstan və Azərbaycan: münasibətlərin yeni mərhələsi üçün tarixi imkan” adlı materialda xatırladılır ki, bu il Qazaxıstan və Azərbaycan arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi qeyd edilir. Öz regionlarında inkişafın lokomotivləri hesab edilən bu dövlətlərin hər ikisi təqribən əsrin üçdə birinə bərabər olan müddətdə siyasi, iqtisadi, mədəni-humanitar inkişafda böyük yol keçib, sanballı nəticələr əldə edib.

Qeyd edilir ki, 2005-ci ildə Bakıda imzalanmış Strateji tərəfdaşlıq və müttəfiqlik münasibətləri haqqında Müqaviləni qarşılıqlı münasibətlərin səviyyəsini müəyyən edən əsas məqam hesab etmək olar. Strateji xarakterli bu ilk sənəddə iki ölkənin dostluğunun dərin kökləri və müttəfiqlik münasibətləri qeyd edilir.

”Kazinform”un materialında deyilir: ”Bu gün Qazaxıstan ilə Azərbaycanın geniş müqavilə-hüquq bazasında müxtəlif xarakterli 90-a yaxın sənəd, o cümlədən dövlətlərarası müqavilələr, hökumətlərarası sazişlər və başqa sənədlər var. Əməkdaşlığın formatı çoxtərəflidir, Qazaxıstan Respublikası və Azərbaycan Respublikası BMT, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri Müşavirəsi, Türksoy, Türk Dövlətləri Təşkilatı kimi beynəlxalq və regional qurumlar çərçivəsində aktiv qarşılıqlı fəaliyyət göstərir”.

Məqalənin müəllifi Serikbol Koşmaqanbetov ikitərəfli münasibətlərin iqtisadi tərkib hissəsinə toxunaraq vurğulayır ki, bu gün Azərbaycan Cənubi Qafqazda Qazaxıstanın əsas ticari-iqtisadi tərəfdaşıdır. ”BaigeNews.kz” nəşri Qazaxıstan Respublikasının Prezidenti yanında Qazaxıstan Strateji Tədqiqatlar İnstitutunun direktoru Yerkin Tukumovun fikrini sitat gətirir. O hesab edir ki, Qazaxıstan ilə Azərbaycan arasında qarşılıqlı münasibətlər hələ özünün bütün potensialını reallaşdırmayıb.

Tukumov Qazaxıstan-Azərbaycan Ekspert Şurasının birinci iclasındakı çıxışında deyib: ”2021-ci ildə Qazaxıstan ilə Azərbaycan arasında əmtəə dövriyyəsi 332,2 milyon ABŞ dollarına bərabər olub. Ölkələrimiz neft-qaz sahəsində, sənaye kooperasiyası, nəqliyyat və logistika, ”yaşıl energetika”nın inkişafı, kənd təsərrüfatı sahələrində qarşılıqlı maraqlara və imkanlara malik olduğuna baxmayaraq öz potensialını sona qədər reallaşdırmayıb”.Onun sözlərinə görə, Azərbaycan Qazaxıstan üçün təbii müttəfiq, Türk dünyasının əsas aktorlarından biri, Cənubi Qafqazın strateji əhəmiyyətli regionunda tərəfdaşdır.



inbusiness.kz
MEDIA HOLDING «ATAMEKEN BUSINESS»
LIVE atameken business
БИЗНЕС ФИНАНСЫ ЭКОНОМИКА СТРАНА НЕДВИЖИМОСТЬ FINANCE AND INVESTMENT
Мир

**Все дороги ведут… через Баку**

Кульпаш Конырова 22.08.22, 14:15 1775

Привлекательность Транскаспийского маршрута будет зависеть от размера сквозного тарифа, к которому должны прийти страны, заинтересованные в развитии этого пути. Разрешение этого вопроса должно произойти в Баку, куда с визитом на этой неделе направляется президент Казахстана, заявил в интервью inbusiness.kz представитель министерства индустрии и инфраструктурного развития Зейнолла Ахметжанов.

**Новое – это хорошо забытое старое**

Буквально сразу же после визита в Сочи, где состоялись переговоры с российским лидером Владимиром Путиным, президент Казахстана Касым-Жомарт Токаев поедет во вторник в Баку на встречу со своим азербайджанским коллегой Ильхамом Алиевым.

”QMonitor” saytında dərc edilmiş materialda qeyd olunur ki, Azərbaycan enerji resurslarının Asiyadan Avropaya nəql edilməsində körpü rolu oynayır. Bu gün ”KazMunayQaz” ilə SOCAR Azərbaycan Dövlət Neft Şirkəti arasında Qazaxıstan neftinin xeyli hissəsinin Bakı-Tbilisi-Ceyhan marşrutu ilə nəql edilməsinə dair danışıqlar aparılır. Bu danışıqların yekununda hər il 1,5 milyon barel Qazaxıstan neftinin dünya bazarına çıxarılması nəzərdə tutulur.

”Inbusiness.kz” nəşrində dərc edilmiş ”Bütün yollar ...Bakıdan keçir” sərlövhəli məqalədə qeyd edilir ki, Cənubi Qafqazda mentallığa, tarixə və dilə görə bizə yaxın olan Azərbaycan Respublikası bugünkü geosiyasi vəziyyət fonunda Qazaxıstan üçün ”Avropaya yeni pəncərə” olur. Materialda Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunun elmi işçisi Ellada Xankişiyevanın fikrinə istinad edilir.

Azərbaycanlı ekspert iki ölkə arasında çoxillik dostluq və əməkdaşlıq telləri olmasını xatırladaraq qeyd edib ki, iki ölkənin prezidentlərinin görüşü ikitərəfli münasibətlərin inkişafına təkan verəcək və buna müvafiq olaraq, iqtisadi əməkdaşlığın möhkəmlənməsinə yönəlmiş mühüm sənədlər imzalanacaq. Onun sözlərinə görə, mühüm sənədlərdən biri ”2022-2026-cı illərdə Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında əməkdaşlığın inkişafına dair kompleks proqram” olacaq.

***Azərbaycanın 1-ci xanımı, 1-ci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın təqdimata ehtiyacı yoxdur. Buna baxmayaraq, biz bu yazıda birinci xanımın fəaliyyətindən bəzi məqamlara toxunmaq istəyirik.***

# Bizim Mehriban - Xalqın gözündə





### Birinci xanımın qısa bioqrafiyası

Mehriban Əliyeva Bakıda ziyalı ailəsində anadan olub. Atası Milli Elmlər Akademiyasının akademiki, fizika-riyaziyyat elmləri doktoru, professor, Milli Aviasiya Akademiyasının rektoru Arif Mir Cəlal oğlu Paşayev, anası şərqşünas alim, filologiya elmləri doktoru, professor, Milli Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun direktoru olmuş, ərəb ədəbiyyatı sahəsində mütəxəssis Aida Nəsir qızı İmanquliyevadır.

Mehriban Əliyeva 1982-ci ildə Bakıda 23 saylı orta məktəbi qızıl medalla bitirib, Nəriman Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə işi fakültəsinə daxil olub. İkinci kursdan təhsilini İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb İnstitutunda davam etdirib, 1988-ci ildə bu institutu əlaçı diplomu ilə bitirib. 1988-92-ci illərdə Moskva Göz Xəstəlikləri Elmi-Tədqiqat İnstitutunda işləyib.

Mehriban xanım Heydər Əliyev Fonduna onun açılmasından- 10 may 2004-cü ildən bu günədək rəhbərlik edir. Fondun işinin əsas istiqaməti ən müxtəlif sahələrdə humanitar fəaliyyətdir. Bura valideyn himayəsindən məhrum uşaqlara kömək, uşaq evlərinin, internat-məktəblərin abadlaşdırılması və maddi bazalarının yaxşılaşdırılması da daxildir. Fond təhsil, səhiyyə, mədəniyyət sahələrində irimiqyaslı proqramlar həyata keçirir.

Uğurlu fəaliyyətinə görə, 2017-ci ildə vitse-prezident vəzifəsinə təyin olunub və hazırda bu vəzifədə çalışır. Fond Azərbaycanın hüdudlarından kənarda da uğurlu layihələr həyata keçirir, ümumbəşəri mədəniyyət abidələrinin bərpasında da iştirak edir. Bu fəaliyyətlərinə görə, bir sıra ölkələrin və beynəlxalq təşkilatlarının orden və mükafatlarına layiq görülüb.

### Humanizmin canlı mücəssəməsi

Humanizm, mərhəmət, vətənpərvərlik, xeyirxahlıq hisslərinə söykənən fəaliyyətilə cəmiyyətdə böyük nüfuz qazanmış Heydər Əliyev Fondunun ölkəmizdə təhsil sisteminin inkişafı ilə bağlı qarşısına qoyduğu başlıca məqsəd Azərbaycanda bu sahənin müasir dövrün əsas tələblərinə uyğun səviyyəyə yüksəldilməsi, potensial kadrların yetişdirilməsindən ibarətdir.

Fondun prezidenti Mehriban xanım Əliyeva 2005-ci ilin əvvəlində paytaxtda internat məktəbləri və uşaq evlərində olduqdan sonra "Uşaq evləri və internat məktəblərinin inkişafı proqramı"nın hazırlanıb həyata keçirilməsini təmin edib. Respublikamızdakı uşaq evləri və internat məktəblərindəki mövcud problemlərin həll olunmasına yönəldilən proqram fondun təhsil sahəsindəki fəaliyyətinin əsas istiqamətlərindən birinə çevrilib. İlkin mərhələdə aparılmış monitorinqdən sonra uşaq müəssisələrində təhsil və sosial sahədə problemlərin həllinə yönələn 4 mühüm istiqamət: texniki dəstək, təhsil, səhiyyə və ictimai fəallıq prioritet kimi müəyyənləşdirilib.

Heydər Əliyev Fondunun səhiyyə sahəsində ən çox əks-səda doğuran layihələrindən biri məhz "Diabetli uşaqlara ən yüksək qayğı" layihəsi olub. Layihə çərçivəsində Azərbaycanda diabet xəstəliyinə düçar olmuş 14 yaşınadək uşaqlar 2004-2006-cı illər ərzində müntəzəm olaraq lazımi miqdarda insulin preparatları və şpris-qələmlərlə təmin ediliblər.

"Talassemiyasız həyat naminə" layihəsi isə bu xəstəliyin geniş yayıldığı ölkələrdən hesab olunan Azərbaycanda böyük rəğbətlə qarşılanıb. Bu xəstəlikdən əziyyət çəkən uşaqların təhlükəsiz və keyfiyyətli qanla təmin olunması üçün donor xidmətinin inkişafı, bu istiqamətdə əhalinin maarifləndirilməsi, prenatal diaqnostika üsulu ilə xəstəliyin proqnozlaşdırılması məsələlərinə xüsusi diqqət yetirilib. Heydər Əliyev Fondu təhsilin, səhiyyənin, mədəniyyətin, incəsənətin, idmanın inkişafına xidmət edən konkret layihələrlə yanaşı, regional inkişaf tədbirlərinə də yaxından dəstək verir.

### "Tanrı bağışlayanları sevir"

Azərbaycanın birinci xanımı üzərinə götürdüyü xoşməramlı missiya ilə həm də insan hüquqlarının qorunmasına, vətəndaş cəmiyyəti ideyalarının cəmiyyətdə daha da möhkəmlənməsinə, habelə cəza siyasətinin humanistləşdirilməsi prosesinə öz töhfələrini verir.

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 84-cü ildönümü münasibətilə hələ 2007-ci ilin may ayında parlamentə təqdim etdiyi amnistiya aktı layihəsi ilə bağlı Mehriban xanım deyib: "Bu təşəbbüsü irəli sürərkən mən hesab edirdim ki, səhv etmiş, cinayət törətmiş insanlara bir daha imkan verməliyik ki, onlar azad həyata qayıtsınlar, ailələrinə, yaxınlarına qovuşsunlar, cəmiyyətdə öz yerlərini tapa bilsinlər. Ağır cinayət törətməyən insanları bağışlayaraq biz həm onları normal həyata qaytarırıq, həm də müstəqil Azərbaycanın humanizm prinsipləri əsasında inkişaf etdiyini nümayiş etdiririk. Mən əminəm ki, cəmiyyətdə bütün ağır, çətin problemləri xeyirxahlıqla, insansevərliklə, mərhəmətlə həll etməyə çalışmaq lazımdır. Bu, vətəndaş cəmiyyətinin formalaşmasında ən əsas şərtlərdən biridir". Amnistiya aktı nəticəsində azadlıqdan məhrumetmə qismində cəza çəkən məhkumlardan təqribən 1500 nəfər cəzaçəkmə müəssisələrindən azad edildi, habelə azadlıqdan məhrumetmə cəzası ilə bağlı olmayan cəzalara məhkum olunmuş təqribən 7500 nəfər şəxs cəzasından azad edildi.

Ümummilli liderin humanist siyasətinə daim yüksək sədaqət nümayiş etdirən fondun prezidenti Mehriban xanım Əliyeva humanizm və sevgi hisslərini oyadan milli bayramımız olan Novruz münasibətilə növbəti amnistiya təşəbbüsü irəli sürərək bununla bağlı qərar layihəsini Milli Məclisə təqdim etdi. Ölkə parlamenti və Prezident İlham Əliyev tərəfindən təsdiq edilən Amnistiya aktı nəticəsində təqribən 9 min nəfər amnistiya aktının təsiri altına düşdü, 1.700 məhkum azadlıqdan məhrumetmə yerlərindən azad edildi.

Fond cəmiyyəti mərhəmət və humanizm ruhunda kökləməyə yönəlmiş nəcib addımlarını bu gün də inamla davam etdirir. Cəmiyyətdə tam bir inam var ki, Heydər Əliyev Fondu bundan sonra da insan hüquq və azadlıqlarının keşiyində etibarlı dayanmaqla vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğu siyasətinə töhfələrini verəcək.

### "Yalnız elmlə, başqa cür heç kəs

heç kəsə üstünlük eyləyə bilməz". Dahi Azərbaycan filosofu, alimi və şairi Nizami Gəncəvi bu müdrik kəlamı ilə elmin və təhsilin insan həyatında ən qiymətli sərvət olduğunu göstərib. Azərbayacnın birinci xanımının ən böyük amalı xalqın elmlənməsi, maariflənməsi və dünyada layiq olduğu yüksək yerə çıxmasıdır. Məhz bu məqsədlə Fond bütün imkanlarından istifadə etməklə məktəb tikintisinə daha çox diqqət ayırır. Heydər Əliyev Fondunun təşəbbüsü ilə həyata keçirilən "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı tədris prosesinin günün tələbləri səviyyəsində qurulmasına imkan verən müasir məktəb binalarının inşasına istiqamətlənib.

Layihə çərçivəsində yüzlərlə məktəb binası inşa və ya təmir olunaraq müasir avadanlıq, istilik sistemi, zəngin kitabxanalar, əyani vəsait və kompüter avadanlığı ilə təchiz olunub.

"Təhsilə dəstək" layihəsi çərçivəsində hər yeni dərs ilinin əvvəlində məktəblilərə çanta və digər məktəb ləvazimatlarının verilməsi Heydər Əliyev Fondunun ənənəsidir. 2004-cü ildən başlayaraq fond hər il qaçqın və məcburi köçkün ailələrindən olan 1-ci sinif şagirdlərini, eləcə də Gürcüstanda yaşayan soydaşlarımızı yeni dərs ili ərəfəsində hədiyyə etdiyi çanta və dərs ləvazimatı ilə sevindirir. Rusiya paytaxtında və ayrı-ayrı şəhərlərdə fəaliyyət göstərən Azərbaycan məktəblərinə göstərilən müntəzəm qayğı da bu qəbildəndir.

Fondun son illərdəki başlıca fəaliyyət istiqamətlərindən biri də ölkənin təhsil problemlərinin həllində nüfuzlu beynəlxalq təşkilatlardan sayılan YUNESKO-nun geniş imkanlarından səmərəli şəkildə faydalanmaqdan ibarət olub. Azərbaycanla YUNESKO arasında bir neçə istiqamətdə əməkdaşlıq münasibətləri qurulub- bu əlaqələr, əsasən, "Təhsil hamı üçün" proqramını, "Assosiativ məktəblər", texniki-peşə sahəsində əməkdaşlıq, inklüziv təhsil layihəsi, ali məktəblərdə YUNESKO kafedralarının yaradılması və digər sahələri əhatə edir.

*Ardı Səh. 6*

# Bizim Mehriban - Xalqın gözündə





**Əvvəli-Səh-5**

Ölkəmizdə təhsilin sürətli inkişafı, gələcək nəslin təlim-tərbiyəsinin yüksək səviyyədə qurulması, onların Azərbaycanın layiqli vətəndaşları kimi yetişməsi istiqamətində Heydər Əliyev Fondunun gördüyü məqsədyönlü işlər, ilk növbədə, milli ruha söykənən vətənpərvərlik hissinin təcəssümüdür.

### Dövlətlər iqtisadiyyatı, millətlər mədəniyyəti ilə tanınır

Azərbaycan mədəniyyəti Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın şəxsində özünə etibarlı hami tapıb. Ötən dövrdə Azərbaycanın görkəmli alimlərinin, yazıçı və bəstəkarlarının yubileylərinin keçirilməsi, "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyinin beynəlxalq miqyasda qeyd olunması, YUNESKO-nun "Dünya irs siyahısı"na İçərişəhərin Şirvanşahlar Saray Kompleksinin, Qobustan Qoruq Muzeyinin və Atəşgahın da daxil edilməsi Azərbaycanın 1-ci xanımının milli mədəniyyətin dünya miqyasında təbliği sahəsindəki fəaliyyətinin bir istiqamətidir.

Bu sahəyə qayğını fəaliyyətində daim əsas tutan Heydər Əliyev Fondunun prezidenti xalqın varlığını özündə yaşadan mənəvi-intellektual irsə yüksək həssaslıqla yanaşır, onun dünya arenasında təbliğində fəal iştirak edir. Mehriban xanım Əliyevanın birbaşa himayəsi ilə son illər Azərbaycanda muğam sənətinin qorunması, inkişafı və təbliği sahəsində böyük işlər görülür. Azərbaycan muğamının YUNESKO-nun bəşəriyyətin qeyri-maddi irsinin şah əsərləri siyahısına daxil olunması bilavasitə bu fəaliyyətin nəticəsidir. Fondun milli mədəniyyətin təbliği sahəsində həyata keçirdiyi ən uğurlu layihələrdən biri də "Qarabağ xanəndələri" albomunun hazırlanması olub. YUNESKO xətti ilə hazırlanmış alboma bu adın seçilməsi ilə bütün dünyaya Qarabağın əzəli və əbədi Azərbaycan torpağı, muğamın isə ən nadir nümunələrinin bu torpağa məxsus olduğu nümayiş etdirilib.

2009-cu ilin mart ayında Azərbaycanın birinci xanımının təşəbbüsü ilə keçirilən Beynəlxalq muğam festivalı Azərbaycan mədəniyyətinin, musiqisinin bütün dünyada tanıdılması və təbliği istiqamətində mühüm tədbirlərdən biri kimi yadda qalıb. Tədbirdə YUNESKO-nun baş direktoru Koişiro Matsuura, habelə dünyanın 17 ölkəsindən çoxsaylı qonaqlar iştirak ediblər.

Heydər Əliyev Fondunun dəstəyi ilə mütəmadi olaraq Qəbələdə Beynəlxalq musiqi festivalı və pianoçuların müsabiqəsi keçirilir. Ümumiyyətlə, Fondun diqqət yetirdiyi sahələr cəmiyyətin olduqca həssas qütbləridir və bunun mərkəzində milli genefondun inkişafı, xalqın minilliklərdən keçirib bugünə çatdırdığı mədəni, milli, əxlaqi dəyərlər sistemi dayanır. Fondun müxtəlif layihələrini birləşdirən ortaq nöqtə isə məhz milli genefondun qorunmasıdır.

I Avropa Oyunlarının və İslamiadanın təşkilində, keçirilməsində 1-ci xanımın əvəzsiz əziyyətini də mütləq qeyd etmək lazımdır. Məhz onun zəhməti, rəhbərlik etdiyi komandanın düzgün istiqamətləndirmə qabiliyyəti sayəsində Azərbaycan bu imtahandan da layiqincə çıxdı, bütün dünya mətbuatı Azərbaycanın təşkil etdiyi bu möhtəşəm tədbirlərdən yazdı.

### Dünyaya humanizm ixracı

Heydər Əliyev Fondunun bir sıra ölkələrdə, o cümlədən Pakistanda təhsil, səhiyyə və humanitar sahələrdə gerçəkləşdirdiyi layihələri bölgə xalqı yüksək qiymətləndirir. 2005-ci ildən başlayaraq Pakistanda məktəb tikintisi, talesemiya mərkəzinin yaradılması, su təchizatı sisteminin quraşdırılması və bu kimi bir çox layihələrin həyata keçirildiyini, xeyriyyə tədbirlərinin keçirilməsi, hədiyyələrlə yanaşı bayram qurbanlıqların kəsilərək sağlamlıq imkanları məhdud uşaqlar üçün Xüsusi Təhsil və Sosial Rifah İdarəsinin 5 mərkəzinə təqdim olunması Fondun adıyla bağlıdır və bu günədək yüzlərlə bu cür aksiyalar həyata keçirilib.

Mehriban xanımın təşəbbüsü və dəstəyi ilə Pakistanın bütün əyalətlərində səhiyyə, təhsil sahələrində silsilə humanitar yardımlar proqramı icra olunmuşdur. Belə ki, Heydər Əliyev Fondunun Prezidenti, Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın dəstəyi və təşəbbüsü ilə zəlzələdən zərər çəkmiş Müzəffərabad şəhərində qızlar məktəbi inşa olunmuş, "Edhi Home" kimsəsizlər evlərində, "Akbar Care" Serebral İflic İnstitutunda, Lakki Marvat Uşaq və Qadın, Peşavar "Kulsum İnternational" klinikalarında "Hepatit B" virusuna qarşı peyvəndlər və müayinələr, habelə açıq ürək əməliyyatları aparılmış, Saif Fonduna maddi yardımlar edilmişdir. Eyni zamanda, Həmzə Xeyriyyə Fonduna xüsusi qanköçürmə laboratoriyası ilə təchiz olunmuş "Suzuki" markalı təcili tibbi yardım avtomobili və minlərlə qanköçürmə paketi hədiyyə edilmişdir.

Xayber göz klinikasının yeni blokunun və gözləmə otaqlarının inşasına, İslamabadda Talassemiya Mərkəzinin tikintisinə maliyyə və texniki yardımlar göstərilmişdir. 2014-cü ildə Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanımın təşəbbüsü və dəstəyi ilə Dera İsmail Xan bölgəsində "Heydər Əliyev su təchizatı", 2015-ci ildə isə Qucarxanda "20 Yanvar şəhidləri su təchizatı" layihələri icra olunmuş və ərazidə yaşayan on minlərlə sakin içməli su ilə təmin edilmişdir.

Mehriban Əliyevanın dəstəyi və təşəbbüsü ilə 2012-2015-ci illər ərzində Ramazan və Qurban bayramları ilə əlaqədar Pakistanın paytaxtı İslamabadda, Ravalpindi, Fayzalabad, Peşavər, Karaçi, Lahor şəhərlərində və Pakistanın müxtəlif əyalətlərində əhalinin kasıb təbəqələri üçün iftar süfrələri təşkil olunmuş, həmçinin humanitar tədbirlər keçirilmiş, kimsəsiz uşaqlara və yaşlılara müxtəlif hədiyyələr təqdim edilmiş, qurbanlıqlar kəsilərək əhalinin kasıb təbəqəsinə paylanılmışdır.

Həmçinin, Pakistan İslam Respublikası Nazirlər Kabinetinin nəzdində fəaliyyət göstərən Al-Farabi əlillər evinə, 120 ədəd əlil arabası və əlillərin reabilitasiyası üçün zəruri olan xüsusi avadanlıq və ləvazimatlar hədiyyə edilmişdir.

Pakistan dövləti Heydər Əliyev Fondunun dəstəyi və təşəbbüsü ilə Pakistanın müxtəlif bölgələrində həyata keçirilən humanitar və sosial layihələri yüksək qiymətləndirərək Fondun prezidenti Mehriban xanımı 2012-ci ildə "Humanizm rəmzi- 2012-ci ilin qadını", 2013-cü ildə "Şəhid Bənazir Bhutto" mükafatları, 2015-ci ildə isə "Hilal-e-Pakistan" ali ordeni ilə təltif edib.

### Əsl həyat yoldaşı nümunəsi

Birinci xanım indiyədək gördüyü işlərdə, fəaliyyətində həmişə həyat yoldaşının dəstəyini hiss etdiyini, ona güvəndiyini Moskvada çıxan "Baku" jurnalına bildirmişdi. Mehriban Əliyeva jurnala verdiyi müsahibəsində qeyd edir: "Ölkənin birinci xanımı olmaq asan deyil. Tədricən kameralara, sənə zillənən baxışlara öyrəşirsən. Bunu öz həyat atributun kimi qəbul edirsən. Ölkə prezidentinin həyat yoldaşı olmaq məsuliyyətli, çətin işdir. Sən yalnızca özünü və ailəni yox, həm də haradasa öz ölkəni təmsil edirsən. Sözlər, hərəkətlər, davranış hamısı yerində olmalıdır".

Birinci xanım həmçinin həyat yoldaşı ilə mübahisə etmədiyini, prezidentin düşüncəsinə və dünyagörüşünə böyük önəm verdiyini deyir: "Ailə həyatındakı çoxillik təcrübəm mənə göstərib ki, İlham hər hansı problemi düzgün qiymətləndirə və nəticəni əvvəlcədən görə bilir. Mən onun məsləhətlərini dinləyirəm, amma öz intuisiyama da güvənirəm. Əlbəttə, elə hallar olur ki, bizim baxışlarımız tutuşmur. Amma bu, mübahisə üçün səbəb ola bilməz. Biz artıq çoxdan bir-birimizə hörmət etməyə öyrəşmişik".

Mehriban Əliyeva məşhur "İzvestiya" qəzetinə verdiyi müsahibəsində isə prezidentlə şəxsi həyatları barədə belə danışmışdı: "İlhamla mənim çox şeylər barədə təsəvvürümüz eynidir. Biz təxminən oxşar mühitdə böyümüşük. Böyüdüyümüz mühit əsrin bütün mürəkkəbliklərinə baxmayaraq, öz ideallarına, mənəvi dəyərlərinə, milli ənənələrinə sadiq qala bilən Azərbaycan ziyalılarıdır. Belə köklərə malik olmaq xoşbəxtlikdir. Qadın, hətta əgər o, prezidentin xanımı da olsa, hər şeydən əvvəl, qadındır, ailədə sülhün, razılığın və məhəbbətin təminatçısıdır. Mənim üçün çox vacibdir ki, həyat yoldaşım olduqca dolğun və gərgin iş günündən sonra evə gəlir və burada onu anlayır və dəstəkləyirlər, onu qiymətləndirir və sevirlər".

### Müzəffər sərkərdənin döyüş yoldaşı

Mehriban xanım ən ağır, ən çətin işlərdə, təhlükəli səfərlərdə öz həyat yoldaşını tək buraxmayıb, həmişə onun yanında olub. 2-ci Qarabağ müharibəsində var gücü ilə çalışdı və qələbə üçün öz töhfələrini verdi. Həm daxili, həm beynəlxalq arenada həqiqətləri çatdırmaq, ölkəmizə, xalqımıza haqq işində dəstək qazanmaq üçün mümkün olan hər şeyi etdi. Onun mətinliyi Azərbaycan qadınlarını ruhlandırdı və arxa cəbhədə qələbəyə inamla çalışmalarına töhfə verdi.

Müharibədən sonra azad olunmuş ərazilərə- minalardan təmizlənməmiş bölgələrə səfərdə onu həmişə prezidentimizlə yanaşı görmək olar. Mehriban xanım göstərdi ki, Azərbaycan qadını dünyanın ən humanist, ən qayğıkeş, ən sülhpərvər qadını olmaqla yanaşı, həm də lazım gəldikdə vətənini, xalqını qorumaq üçün öz paltarını hərbi geyimlə əvəz edib ən təhlükəli döyüş bölgəsində peyda ola bilər.

Azad olunmuş torpaqlarımızdan çəkilişlər edib öz sosial şəbəkə səhifəsində yaymaqla öz mətinliyini və səmimiyyətini sübut edən 1-ci xanımın hər belə paylaşımlarında "Sizin Mehriban" imzasını görən insanlar onun həqiqətən də bizim Mehriban olduğunu anlayırlar. Bəli, o təkcə dövlətimizin 1-ci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri deyil, o bizim üçün ilk növbədə, sadəcə, bizim Mehribandır.

***Lalə Mehralı***

# Avqustun 31-də üçtərəfli Moskva görüşü keçirilərsə...



## Azərbaycan Prezidenti İlham Əliyev qəti şərtlərini önə sürəcək, Ermənistana isə düşünmək üçün daha heç bir vaxt verilməyəcək!

Ermənistan KİV-lərində yayılmış və təsdiqlənməmiş informasiyaya görə, Azərbaycan, Rusiya və Ermənistan liderlərinin növbəti görüşü avqustun 31-də Moskvada keçirilə bilər. Eyni formatda keçirilən sonuncu görüş isə ötən ilin noyabrında Soçidə baş tutmuşdu. Eləcə də Azərbaycan və Ermənistan dövlət başçıları cari ilin aprel və may aylarında Avropa sammitlərində qarşılaşıblar. Bu baxımdan, növbəti yüksək səviyyəli görüşün keçirilməsi ehtimalları mümkün görünə bilər.

### Moskva üçün Azərbaycanın öz yüksək potensialı ilə Avrasiya xarakterli strukturlara inteqrasiyası çox mühümdür və əhəmiyyət daşımaqdadır

Daha bir məqam budur ki, əgər Azərbaycan və Ermənistan liderləri Rusiyanın paytaxtına yollansalar, onların hər birinin ayrı-ayrılıqda Vladimir Putinlə də danışıqlar aparmaları mümkündür. Məsələ ondadır ki, Moskva üçün Azərbaycanın öz yüksək potensialı ilə Avrasiya xarakterli strukturlara inteqrasiyası çox mühümdür və əhəmiyyət daşımaqdadır. Onu da qeyd edək ki, rəsmi Bakı hələ də Qarabağda qalan qanunsuz erməni silahlı formalaşmalarının mülki infrastrukturları minalamaları, yaşayış məskənlərini dağıdaraq talan etmələri və meşələri yandırmaları məsələsini qəti və sərt qaydada qaldıra bilər. Lakin daha bir məqam, daha dəqiq desək, faktor da baş tutacağı iddia edilən görüşdə özünü sərgiləyə bilər...

### Vladimir Putin Nikol Paşinyandan hansı izahatlar verməsini tələb edəcək?

Məsələn, Vladimir Putin birbaşa Nikol Paşinyandan son vaxtlar Ermənistanda baş qaldıran anti-Rusiya xarakterli aksiyalar haqqında izahat istəyəcək, əlbəttə ki, görüş haqqında proqnozlar özünü doğruldarsa. Üstəlik, İrəvanda fəaliyyət göstərən "Surmalu" ticarət mərkəzinin partlamasında Rusiya xüsusi xidmət orqanlarının hədəfə alınması, ittiham edilməsi də sorğu-sual oluna bilər. Hər halda görüş keçirilsə Paşinyanın Putinə edəcəyi məruzələri kifayət qədərdir.

Ancaq üçtərəfli görüş detallarının əsas leytmotivi əgər o baş tutarsa əlbəttə ki, regional nəqliyyat infrastrukturunun blokadadan çıxarılması mövzusu olacaq. Üstəlik, azçox bu məsələdə müəyyən irəliləmələr də sezilməyə başlayıb. Ən birincisi isə bütün bunlar Laçın rayonuna aiddir ki, orada sadəcə bəzi kiçik texniki məsələlər qalmaqdadır və həll edilmək üzrədir.

Rəsmi Bakının tələbləri - bütün bunlar rəsmi İrəvanı və şəxsən Nikol Paşinyanı daha dəqiq mövqe bildirməyə sövq edir!

Növbəti qaldırıla bilinəcək məsələ Ermənistan üzərindən quru yolunun açılmasıdır ki, həmin yol Azərbaycanı ona məxsus muxtariyyəti ilə - Naxçıvanla birləşəcək. Yəni bu marşrutun blokadadan çıxarılması yalnız prinsipiallıqla ölçülmür, həm də 2020-ci ilin noyabr bəyanatı ilə öz yekun təsdiqini tapır. Üstəlik, yeni Laçın yolunun rekord qısa müddətdə və yüksək keyfiyyətlə inşa edilməsi rəsmi Bakının sülhə doğru addımlarında nə qədər maraqlı olduğunu açıq-aydın göstərir, amma İrəvan cinahından belə bir marağın olmaması da göz önündədir. Artıq belə bir qənaətə də gəlmək olar ki, Azərbaycan Prezidenti İlham Əliyev həmin mövzunun da köklü həll edilməsi üçün qəti şərtlərini önə sürəcək, Ermənistana isə düşünmək üçün vaxt verilməyəcək. Belə ki, hazırkı dövrə qədər Ermənistana kifayət qədər müddət verilib və bundan sonra həmin şans bir daha, təkrarən verilməyəcək. Söz yox ki, bütün bunlar rəsmi İrəvanı və şəxsən Nikol Paşinyanı daha dəqiq mövqe bildirməyə sövq edir.

Proseslərin ardınca sərhədlərin delimitasiyası üzrə mərhələli, yaxud birdəfəlik planlar da icra ediləcək

Yeri gəlmişkən, bu günlərdə erməni baş nazir Azərbaycan-Ermənistan sərhədlərində üç sərhəd-buraxılış məntəqələrinin açılmasını təsdiq edən sənədi imzalayıb və həmin sənəd hökumətin rəsmi saytında işıqlandırılıb. Üstəlik, ərazilərin adı birbaşa Azərbaycan toponimləri ilə açıqlanıb - "Sotk" (Kəlbəcər) "Qeqarkunik vilayəti (Kəlbəcər rayonu), "Erasx" (Sədərək), "Ararat vilayəti" (Sədərək rayonu), "Karaunc" (Eyvazlı).

Beləliklə, növbəti üçtərəfli görüşün nə zaman keçiriləcəyinə baxmayaraq fakt budur ki, həmin görüşün nəticələri sərhədlərin delimitasiyası prosesinə intensivlik qatacaq. Əgər tərəflər sərhəd-buraxılış məntəqələrinin açılmasını dəqiqləşdirəcəklərsə, yaxud Ermənistan üzərindən nəqliyyat dəhlizinin açılması vaxtı təyin olunacaqsa ehtimal etmək mümkündür ki, həmin proseslərin ardınca sərhədlərin delimitasiyası üzrə mərhələli, yaxud birdəfəlik planlar da icra ediləcək.

Son olaraq isə belə bir fikir də hasil etmək mümkündür ki, müvafiq hökumətlərarası komissiyanın konkret nəticələri barədə danışmaq hələ tezdir. Ancaq delimitasiya ssenarisi üzrə konsensus əldə olunarsa, artıq bu istiqamətdə də buzların əriməsi mümkünlüyünə aid ola biləcək maraqlı prosesləri izləyə bilərik...

*Rövşən RƏSULOV*

# "Xankəndidəki mitinqlər və ermənilərin "bəlkə də qaytardılar" xülyası

"Laçının adı çəkilən kəndlərinin ermənilər tərəfindən boşaldılması bütünlüklə Laçın rayonunda da Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi istiqamətində Prezident İlham Əliyev tərəfindən müəyyən edilmiş strateji kursun dönmədən həyata keçirilməsinin nəticəsidir". Bunu "Səs" qəzetinə açıqlamasında politoloq Elşən Manafov deyib.

Elşən Manafovun sözlərinə görə, bütün bunlar üçtərəfli Moskva razılaşmasının şərtləri sırasında zamanında Prezident İlham Əliyev tərəfindən salınmış siyasi uzaqgörənliyin və qətiyyətin nəticəsində mümkün olmuşdur: "Prezident İlham Əliyevin regionda sabitliyin və təhlükəsizliyin təmin edilməsi məqsədilə bütün bu müddət ərzində Moskva, Ankara, Tehran və Brüsseldə apardığı danışıqlar perspektivdə bu reallıqların həyata keçirilməsi ilə bağlı məsələləri ehtiva etdiyindən rəsmi Bakının zaman-zaman və ardıcıllıqla əldə etdiyi uğurlar bu geosiyasi güc mərkəzləri tərəfindən anlaşıqla qəbul edilir və əlbəttə, istər Ermənistanda, istərsə də separatçı rejimdə böyük narazılıq və təşviş doğurur. Xankəndidəki mitinqlər də məhz separatçı dairələrin bununla bağlı təşviş və narazılıqlarından qaynaqlanır. Erməni millətçiləri anlamağa başlayıblar ki, Azərbaycanla uzun müddət davam edən qarşıdurma başa çatmaqdadır. Bu proses separatçıların xeyrinə olmayacaq, mitinqlərin çağırılması erməni diasporunun məlum proseslərə bir daha diqqətinin cəlb edilməsi və onların vasitəsilə beynəlxalq birliyə Qarabağda ermənilərin guya ki, rəsmi Bakı tərəfindən təzyiqlərə məruz qalması, onların insan haqlarının pozulması kimi cəfəng və əlbəttə, "feyk məlumatlar"ın çatdırılması istəyindən irəli gəlir. Millətçi dairələr bu kimi təxribatlara gedərək məlum güc mərkəzlərinin Azərbaycan iqtidarının mövqeyinə təzyiq göstərəcəklərinə ümid edir və hələ də Mirzə Cəlilin təbirincə desək, "bəlkə də qaytardılar" xülyası ilə yaşayırlar".



*Gülyana*

# İqtisadiyyatda baş verənlər yaxın və orta müddətli perspektivlər üçün nə vəd edir?




"Yaxın və orta perspektivdə dünya iqtisadiyyatında bir sıra məqamlar öz yerini alacaq. Pandemiya dövründə postpandemiya dövründə çox şeylərin dəyişəcəyini, yeni sahələrin yaranacağı barəsində şişirdilmiş proqnozlar verilmişdi. Amma göründüyü kimi heç nə olmadı. Əvvəlcədən də bildirmişdim ki, pandemiya unudulub gedəcək və həyat öz axarına qayıdacaq. Pandemiyadan fərqli olaraq hazırkı böhranın izləri ciddi şəkildə qalacaq". Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı ekspert Eldəniz Əmirov deyib.

Onun sözlərinə görə, burada iqtisadi reallıqlar, bölgədəki güclər, logistik fəaliyyət istiqamətləri, ölkələrarası fəaliyyət istiqamətləri dəyişir və istehsal sahələrində olan fərqlər meydana çıxır: "Dünyada ərzaq böhranı səbəbindən ölkələr daha çox daxili istehsalın həcmini artırmağa fokuslanacaq. Ən azından ərzaq təhlükəsizliyi istiqamətində ölkələr prioritet olaraq əsas istiqamətləri seçəcək. Təbii ki, bu baxımdan bir neçə ölkənin fəaliyyətində iqtisadi gücündə müəyyən dəyişikliklər olacaq. Bu ölkələr sırasına Rusiya, Azərbaycan, Türkiyə, Ukrayna və Ermənistanı daxil etmək olar.

Yaxın perspektivdə Rusiya və Ukrayna iqtisadiyyatında kiçilmələrin baş verməsi gözlənilir. Amma orta perspektivdə düşünürəm ki, Ukraynada müharibədən sonrakı dövrdə bərpa işləri sürətlə aparılacaq. Həmçinin Rusiyadan fərqli olaraq reabilitasiya prosesi daha sürətli gedəcək. Rusiyada isə hələ uzun müddət sanksiyalar qalacaq. Qərb istəyinə nail olanadək bu sanksiyalar davam edə bilər və ya tədricən yumşalmalara gedilə bilər. Çin və Amerika arasında olan münasibətlərin yumşalacağını düşünmürəm. Çünki hazırda bütün siyasəti iqtisadiyyat idarə edir. İqtisadi maraqlar dünyanın düzənini dəyişir. Bu səbəbdən ABŞ özünə rəqib bildiyi Çinə qarşı bu və ya digər formada mübarizəsini davam etdirəcək. Bu, birbaşa ticari əlaqələrdə də hiss oluna bilər".

Eldəniz Əmirov həmçinin qeyd edib ki, Azərbaycan ilə bağlı olan gözləntilər yaxşı gözləntilərdir: "Artıq Azərbaycan məhz 2020-ci ildə qırılma nöqtəsində idi. Qırılma nöqtəsindən sonra artıq böyük sıçrayış siyasi, hərbi və qlobal mövqeyində ciddi möhkəmlənmə başladı. Düşünürəm ki, iqtisadi inkişaf üçün mövcud neft gəlirlərindən daha səmərəli şəkildə istifadə olunmasına böyük ehtiyac var".

*A. Qurbanlı*

**_Bəli, bu gün 2020-ci ildə Vətən müharibəsində Azərbaycanın öz ərazilərini erməni işğalından azad etməsindən sonra ölkəmizin regionda və dünyada nüfuzu durmadan artır. Azərbaycan regionda söz sahibinə çevrilib və Cənubi Qafqazda vəziyyətə özü diktə edir. Təsadüfi deyil ki, bölgədə sülhün bərpası prosesində Azərbaycanın irəli sürdüyü təkliflər və təşəbbüslər istər region ölkələri, istərsə də dünyanın supergüc dövlətləri və beynəlxalq təşkilatları tərəfindən qəbul edilməkdədir. Bu isə Azərbaycanın müxtəlif ölkələrlə əlaqələrinə də müsbət təsirini göstərir._**

# Azərbaycan-Özbəkistan münasibətlərinin inkişafında yeni mərhələ



### AZƏRBAYCAN-ÖZBƏKİSTAN LİDERLƏRİNİN MÜTƏMADİ ƏLAQƏLƏRİ ZAMANIN SINAĞINDAN ÇIXAN DOST VƏ QARDAŞLIĞIN GÖSTƏRİCİSİDİR

Azərbaycan Prezidentinin Mətbuat Xidmətinə istinadən Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib. Telefon söhbəti əsnasında iki ölkə arasında qarşılıqlı faydalı əməkdaşlığın gələcək inkişafı və strateji tərəfdaşlıq münasibətlərinin möhkəmləndirilməsi

## _ŞAVKAT MİRZİYOYEV: "Azərbaycan bizim üçün yaxın dost və zamanın sınağından çıxmış etibarlı strateji tərəfdaşdır"_

məsələləri müzakirə olunub. Bu ilin iyun ayında ali səviyyəli görüşlərin yekunlarına əsasən əldə olunmuş razılaşmaların reallaşmasında nəzərəçarpacaq tərəqqi məmnunluqla qeyd edilib.

Avqustun əvvəlində Hökumətlərarası Birgə Komissiyanın növbəti iclasının, Özbəkistan, Azərbaycan və Türkiyənin xarici işlər, ticarət və nəqliyyat nazirlərinin birinci görüşünün səmərəli olduğu vurğulanıb. Bildirilib ki, cari ildə qarşılıqlı əmtəə dövriyyəsi 70 faiz artıb, kənd təsərrüfatı, ipəkçilik və toxuculuq sənayesi, maşınqayırma, kimya və digər sahələrdə birgə kooperasiya layihələrinin həyata keçirilməsinə başlanılıb. Qeyd edilib ki, Özbəkistan-Azərbaycan investisiya fondunun tezliklə fəaliyyətə başlaması üzrə iş aparılır və mədəni-humanitar mübadilə genişlənir.

Dövlət başçıları praktiki qarşılıqlı fəaliyyətin daha da genişləndirilməsinə tərəfdar olduqlarını bildiriblər. Bu baxımdan cari ilin payızında Regionların Forumunu və iki ölkənin sənaye potensialı sərgisini keçirməyin vacibliyi qeyd edilib.

Özbəkistan və Azərbaycan prezidentlərinin ənənəvi açıq, səmimi və dostluq şəraitində keçən tlefon söhbəti zamanı regional gündəliyə dair fikir mübadiləsi də aparılıb. Qarşıdakı çoxtərəfli görüşlərin, o cümlədən Şanxay Əməkdaşlıq Təşkilatının və Türk Dövlətləri Təşkilatının Səmərqənddə baş tutacaq zirvə görüşlərinin qrafiki və gündəliyi nəzərdən keçirilib.

Göründüyü kimi, səmimi və dostluq şəraitində keçən telefon söhbəti bir daha Azərbaycan və Özbəkistan xalqlarını yaxın milli adət və ənənələr, ümumi dil qrupu, mədəniyyət və din birləşdirdiyini təsdiqləyir.

### AZƏRBAYCAN-ÖZBƏKİSTAN ARASINDA İKİTƏRƏFLİ MÜNASİBƏTLƏRİN İNKİŞAFINDA DÖVLƏT BAŞÇILARININ QARŞILIQLI SƏFƏRLƏRİ...

Azərbaycanla Özbəkistan arasında ikitərəfli münasibətlərin inkişafında dövlət başçılarının qarşılıqlı səfərləri xüsusilə böyük əhəmiyyətə malikdir. Bu baxımdan, Özbəkistanın mərhum Prezidenti İslam Kərimovun 1996-cı il mayın 26-27-də Azərbaycana ilk rəsmi səfəri xüsusi qeyd olunmalıdır. Qarşılıqlı anlaşma və dostluq şəraitində keçən səfər zamanı iki ölkə arasında 18 sazişdən ibarət xüsusi sənədlər paketi, o cümlədən "Azərbaycan Respublikası və Özbəkistan Respublikası arasında dostluq və əməkdaşlıq haqqında müqavilə" imzalanıb. 1996-cı il oktyabrın 21-22-də Azərbaycan Prezidenti Heydər Əliyev Türkdilli Dövlət Başçılarının IV Sammitində və görkəmli dövlət xadimi Əmir Teymurun 660 illik yubiley mərasimində iştirak etmək üçün Daşkənddə səfərdə olub. 1997-ci il iyunun 18-19-da ulu öndər Heydər Əliyevin Özbəkistana rəsmi səfərini isə münasibətlərin inkişafında yeni mərhələ kimi səciyyələndirmək olar. Həmin səfər zamanı Daşkənddə ölkələrimiz arasında 19 sənəd imzalanıb. Bu sənədlər içərisində "Azərbaycanla Özbəkistan arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi, dostluq və tərəfdaşlıq münasibətlərinin möhkəmləndirilməsi haqqında müqavilə" böyük əhəmiyyət kəsb edir. Bu sənədlər iki ölkə arasında uğurlu əməkdaşlıq üçün möhkəm fundamental hüquq-müqavilə bazası yaradıb.

2004-cü il martın 23-24-də Azərbaycan Prezidenti İlham Əliyev Özbəkistanda dövlət səfərində olub. Səfər zamanı "Azərbaycan Respublikası və Özbəkistan Respublikası arasında strateji tərəfdaşlığın daha da möhkəmləndirilməsi haqqında Bəyannamə" imzalanıb. Strateji münasibətlərin əsasını qoyan həmin sənəddə bildirilir ki, tərəflər keçmiş Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsinə və BMT-nin Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin və ATƏT-in qərarlarının yerinə yetirilməsinə qəti şəkildə dəstək verdiklərini ifadə edirlər.

Vurğulamaq lazımdır ki, rəsmi Daşkənd artıq tarixin arxivinə göndərilmiş Qarabağ münaqişəsində Azərbaycanın ədalətli mövqeyini hər zaman dəstəkləyib. BMT Baş Assambleyasında 14 mart 2008-ci il tarixində səsverməyə çıxarılmış "Azərbaycanın işğal olunmuş ərazilərindəki vəziyyət" adlı qətnaməyə Özbəkistan lehinə səs vermiş yeganə Mərkəzi Asiya ölkəsi olub. Azərbaycan Prezidentinin və Özbəkistan Prezidentinin 2010-cu il sentyabrın 27-də Daşkənd şəhərində imzalanmış Birgə Bəyannaməsində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn ümumtanınmış prinsip və normalarına uyğun olaraq, ilk öncə Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığına riayət olunması və təmin edilməsi, habelə BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri və ATƏT-in qərarları əsasında tezliklə həll olunmasının zərurəti öz əksini tapmışdır. Özbəkistan tərəfi, Müstəqil Dövlətlər Birliyinin sədri kimi dostluq, mehriban qonşuluq və qarşılıqlı etimad münasibətlərinin möhkəmləndirilməsinin, MDB məkanındakı mübahisələrin beynəlxalq hüququn normalarına uyğun olaraq sülh yolu ilə həll olunmasının vacibliyini bir daha təsdiqləyir. 2021-ci il martın 31-də Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının videokonfrans formatında keçirilmiş qeyri-formal Zirvə görüşündə Özbəkistan Prezidenti Şavkat Mirziyoyev Azərbaycanı Qarabağın qaytarılması və tarixi ədalətin bərpa olunması münasibətilə təbrik edib. Həmin ilin noyabrında İstanbulda keçirilmiş Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşündə isə Özbəkistan Prezidenti Şavkat Mirziyoyev Özbəkistanın vəsaiti hesabına Füzulidə böyük məktəb inşa ediləcəyini bildirib. 3 hektar ərazidə 960 yerlik məktəb tikintisi üçün ərazi artıq müəyyənləşdirilmiş və ilkin işlərə başlanılıb. Bu, Azərbaycanla Özbəkistan arasında dostluğun, əsl qardaşlığın rəmzidir. Özbəkistan Prezidenti Füzulidə böyük məktəb inşa ediləcəyini bildirməklə işğaldan azad olunmuş Azərbaycan torpaqlarında bərpa və quruculuq prosesinə əməli dəstəyini ifadə edib. Aydındır ki, Azərbaycanın gücü də, imkanları da kifayətdir ki, bütün işləri özü reallaşdırsın, lakin Özbəkistan Prezidenti bu nəcib və mərd addımı ilə bir daha iradə nümayiş etdirərək Azərbaycan xalqının yanında olduğunu göstərdi.

Pandemiyadan sonra Azərbaycan Prezidentinin ilk rəsmi səfərini məhz Özbəkistana etməsi təkcə iki ölkə rəhbərinin niyyətlərinin sübutu deyil, həm də xalqlarımızın qardaşlıq, dostluq münasibətlərinin möhkəm təməlinin təsdiqidir və iki ölkə arasında münasibətlərin gələcək hərtərəfli inkişafının əsasını qoyur. Ölkələr arasında bütün mühüm sahələri əhatə edən 20-yə yaxın sənədin imzalanması, əlaqələrin inkişafını çox illər əvvəlcədən müəyyən edən birgə Bəyannamənin qəbul edilməsi bunu aydın nümayiş etdirir. Azərbaycanla Özbəkistan arasında Strateji tərəfdaşlığın və qarşılıqlı fəaliyyətin genişləndirilməsi haqqında siyasi Bəyannamə qlobal xarakter daşıyır, ikitərəfli münasibətləri keyfiyyətcə yeni səviyyəyə çatdırır və mahiyyət etibarilə gələcək fəaliyyətin yol xəritəsidir. Səfər zamanı imzalanmış sənədlər Azərbaycan ilə Özbəkistan arasında strateji tərəfdaşlığı keyfiyyətcə yeni mərhələyə yüksəldib.

Prezident İlham Əliyevin Özbəkistana dövlət səfəri ümummilli lider Heydər Əliyevin Özbəkistana səfərinin 25 illiyinə təsadüf edir. İki qardaş ölkə arasında əlaqələrin genişlənməsində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin də müstəsna xidmətləri olub. Qədirbilən özbək xalqı da bunu heç zaman unutmur. Azərbaycan Prezidentinin Özbəkistana səfəri

## _İLHAM ƏLİYEV: "Əminik ki, qardaş özbək xalqının ardıcıl inkişafı davam edəcək"_

çərçivəsində Daşkəndin mərkəzində ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr edilmiş guşənin yaradılması Ulu Öndərin xatirəsinə dərin ehtiramın, bütün Azərbaycan xalqına həqiqi qardaşlıq münasibətinin ifadəsidir.

### PREZİDENT İLHAM ƏLİYEV ÖZBƏKİSTANA SƏFƏRİNİ SIÇRAYIŞ XARAKTERLİ SƏFƏR ADLANDIRIB

"Mənim Özbəkistana səfərim çox əlamətdar hadisədən - Daşkəndin mərkəzində ümummilli lider Heydər Əliyevin abidəsinin, onun adını daşıyan meydanın və gözəl parkın açılışından başlandı. Şavkat Miromonoviç, mən Sizə atamın xatirəsinə belə münasibətə görə Azərbaycan Prezidenti kimi, Heydər Əliyevin oğlu kimi öz adımdan və bütün Azərbaycan xalqı adından təşəkkürümü bildirirəm. Biz bunu çox yüksək dəyərləndiririk".

Bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Daşkənddə mətbuata bəyanatında bildirib. Özbəkistanda Heydər Əliyevin xatirəsinin sevgi və hörmətlə yad edildiyini vurğulayan dövlətimizin başçısı deyib: "Mən atamın işinin davamçısı kimi, Azərbaycan Prezidenti kimi öz fəaliyyətimdə bizim ikitərəfli münasibətlərə daim xüsusi diqqət ayırıram. Bugünkü dövlət səfəri bunun əyani təsdiqidir".

Bəli, Prezident İlham Əliyev Özbəkistana səfərini həqiqətən sıçrayış xarakterli səfər adlandıraraq qeyd edib ki, müzakirə olunan mövzuların həm mahiyyətinə, həm formasına, həm məzmununa, bizim gəldiyimiz qərarlara əsasən bu səfər və razılaşmalar münasibətlərimizin gələcək inkişafı üçün əsas olacaq.

Bir sözlə, Prezident İlham Əliyevin Özbəkistana səfəri, Prezident Şavkat Mirziyoyevlə görüş, imzalanan sənədlər və liderlərin səsləndirdiyi fikirlər iki ölkə münasibətlərində dərin əməkdaşlığa əsaslanan yeni mərhələnin əsasının qoyulduğunu deməyə əsas verir. Dövlət başçımızın dediyi kimi: "Biz dostlar kimi, qardaşlar kimi Sizin uğurlarınıza sevinirik. Əminik ki, qardaş özbək xalqının ardıcıl inkişafı davam edəcək".

**_RƏFİQƏ KAMALQIZI_**

# Azərbaycanın haqqı!

*Erməni cəmiyyəti çox qəribədir. Mövqeyini müəyyənləşdirmək o qədər də asan deyil. Bu gün sevdiyinə sabah nifrət edir, bu gün topa tutduğunu da sabah elə əzizləyir ki, çaşıb qalırsan. Ermənistan cəmiyyətinin Paşinyana olan münasibətini heç analiz etmisinizmi? Bütün günümüzü siyasi xəbərlərin içində keçiririk, amma Paşinyana nifrətmi edirlər, yaxud sevirlər, hələ də müəyyənləşdirmək mümkün deyil. Amma bu qeyri-müəyyənlik sonsuza qədər deyil, yəni qeyri-müəyyən də deyil. Belə ki, Ermənistan cəmiyyətini Paşinyana münasibətə görə iki cəbhəyə bölmək olar. Reallığı dərk edənlər və utopiya ilə yaşayanlar…*



Reallığı dərk edənlərdən danışacağıq. Bu təbəqəyə aid olan ermənilər Laçın dəhlizinin statusundan, keçmişindən və gələcəyindən xəbərdardırlar, yəni sabah bu yolun tam olaraq qapadılacağına da özləri qədər inanırlar. Utopiya həvəskarları isə hələ də "Böyük Ermənistan" barədə düşünürlər. Nə etməli, qoy düşünsünlər, onsuz da "min fikir, bir borcu ödəmir". Amma çomağımızı da yerə qoymamalıyıq

Bu gün Qarabağdan şad xəbərlər gəlməkdədir. Laçın dəhlizi vaxtından əvvəl Azərbaycanın nəzarətinə keçib. Rusiya sülhməramlıları porunu-posunu götürüb yeni nəzarət-buraxılış məntəqələrinə daşınıblar. Amma inanırıq ki, müvəqqətilik statusu 3 ildən sonra həqiqətən sona çatacaq. 30 il içimizi gəmirən əsəb, ermənilərin içimizə saldığı məxlətə sona çatacaq, Qarabağda bir dənə də olsun yad ünsürlər, bizə başağrısı gətirən yad məxluqlar qalmayacaq. Azərbaycan 30 il gözlədiyi haqqına qovuşacaq, zorla əlindən almaq istədikləri Qarabağına tam olaraq, yəni de-fakto qovuşacaq.

Dağlıq Qarabağ ətrafında vəziyyətin müzakirəsi davam edib. Rusiya, Ermənistan və Azərbaycan liderləri arasında 9 noyabr 2020-ci il, 11 yanvar və 26 noyabr 2021-ci il tarixli üçtərəfli sazişlərin ardıcıl icrasının vacibliyi bir daha təsdiqlənib. Bu gün Ermənistanın Baş naziri Paşinyanla Rusiya prezidenti Vladimir Putin arasında telefon danışığı olub. Tərəflər regionda sabitliyin təmin edilməsində Rusiya sülhməramlı kontingentinin rolunu qeyd ediblər. Bundan başqa, Paşinyan və Putin Ermənistan və Rusiya arasında strateji tərəfdaşlıq və müttəfiqliyin gələcək inkişafı üçün bəzi aktual məsələləri müzakirə ediblər. Xatırladaq ki, Ermənistanın baş naziri ilə Rusiya prezidenti arasında əvvəlki söhbət avqustun 8-də olub. Sonra iki ölkə liderləri Qarabağ ətrafında vəziyyətin inkişafı, o cümlədən Ermənistan-Azərbaycan sərhədində təhlükəsizliyin təmin edilməsi məsələlərini müzakirə ediblər.

"Gallup International" təşkilatı iyul-avqust aylarında keçirdiyi sorğuların nəticələrini açıqlayıb. Onların fikrincə, əgər gələn bazar günü Ermənistan parlamentinə seçkilər keçirilsəydi, o zaman baş nazir Nikol Paşinyanın "Mülki müqavilə" partiyası 16,1 faiz, müxalif "Ermənistan" bloku isə 5,1 faiz səs qazanardı. Diqqət edin, birincilər hakimiyyətdə, ikincilər isə müxalifətdədirlər. Qeyd edək ki, potensial seçicilərin hər iki siyasi qüvvəyə rəğbəti azalıb. Belə ki, apreldə dərc olunmuş sorğulara əsasən, respondentlərin 20,4%-i hakim partiyaya səs verməyə hazır idi, indi isə bu rəqəm 16,1%-ə qədər azalıb. Apreldə keçirilən sorğuların nəticələrinə görə, respondentlərin 8,3%-i "Ermənistan" blokuna səs verməyə hazırdır. İndi bu rəqəm, yuxarıda qeyd edildiyi kimi, cəmi 5,1% təşkil edir. Sorğulara əsasən, respondentlərin 32,8 faizi seçkilərdə səsvermədə iştirak etməyəcəyini bildirib. 12,1% - cavab verməkdən imtina edib, 15,6% - cavab verməkdə çətinlik çəkib. Seçkilər gələn həftəsonu keçirilsəydi, sorğulara görə, yalnız yuxarıdakı iki qüvvənin parlamentə düşmək şansı var idi, qalan partiyalar baryeri aşa bilməzdi. Məsələn, üçüncü prezidentin rəhbərlik etdiyi "Mənim şərəfim var" bloku cəmi 2,7% səs toplayıb.

Hakimiyyətdən başlayaq. Hakim elitaya ictimai inamın və reytinqin aşağı düşməsini asanlıqla izah etmək olar. Ölkədə həyatın yaxşılaşdırılması ilə bağlı bütün vədlərə və hətta Ermənistanda guya sosial-iqtisadi fonun yaxşılaşdığı və ÜDM-in artdığı barədə bəyanatlara baxmayaraq, reallıqda hər şey o qədər də gülməli deyil. Ərzaq və ilkin tələbat mallarının qiymətinin demək olar ki, hər gün bahalaşdığı, əhalinin böyük təbəqəsi üçün əlçatmaz hala gəldiyi zaman, yəqin ki, işsizlik və inflyasiyanın artması nəticəsində öz vəziyyətinin pisləşməsini hiss edilir. Maaşlar və pensiyalar artarsa, yenə də bahalaşma ilə ayaqlaşmır. Başqa cür ola bilməz, çünki iqtisadiyyatda hər şey pisdir, insanlar hər şeyə dözməkdən yorublar. Kimin imkanı çatır ölkəni tərk edir, qalanlar isə kəmərlərini daha möhkəm sıxır.

Gələk Laçın rayonunda baş verənlərə. Ermənistan cəmiyyəti media üzərindən Laçın dəhizi ətrafında baş verənlərdən narazı kimi mövqe sərgiləyir. Amma əksəriyyət hadisələrin gedişindən məmnun görünür. Qarabağın erməni xalqının boğazından kəndir olduğunu hər kəs təsdiq edir. Gəlirik, yuxarıda verdiyimiz suala. Ermənilərin Qarabağ məğlubiyyətində əsas ssenarist olan indiki hakimiyyətə nifrət etmək əvəzinə onu bir az da sevməsi və dəstəkləməsinin səbəbləri ortaya çıxır. Ermənistan və ermənilər, Ter-Petrosyan demişkən maksimalist olsalar da artıq bu xarakterin keçərsiz olduğunu anlayıblar. Azərbaycan Qarabağın təkbaşına yiyəsidir, bu torpaqların sahibidir. Sadəcə, erməni lobbisinin yanlış tərtibatı, yalan ideologiyası, utopik çağırışları il meydanlara çıxan ermənilər gec də olsa anlayıblar ki, 30 il ərzində onlara yalan deyiblər, yanlış məlumat veriblər.

Azərbaycan ərazilərini qarış-qarış öz ərazilərinə qatır, üçtərəfli Bəyanatın müddəalarına əməl edərək Qarabağda, xüsusən Laçın rayonunda haqqı olanlara qovuğur. Belə bir gözlənti də var ki, sanki Paşinyan növbəti müharibə istəmir. Amma hadisələrin gedişində müharibə variantı da istisna edilmir. Erməni cəmiyyəsində hələ də Ermənistanın dövlətçiliyini və Qarabağı (ermənilər Artsax adlandırır) xilas etmək üçün müharibəni qaçılmaz variant adlandıranlar hələ də var. Kiminsə xoşuna gəlsə də, istəməsə də, Paşinyan hökumətinin öyünə biləcəyi yeganə şey budur.

Erməni müxalifəti də müharibənin nəticələrindən sarsılan ilk aylarda ümidsizliyə qapılsa da ayağa qalxaraq indiki hakimiyyəti devirməyə cəhd edir. Hətta hərbçilərin bir hissəsi andını unudaraq müxalifətin tərəfinə keçib. Müxalifət isə cəmiyyətin əksəriyyətini öz bayraqları altında toplaya bilmədi və indi sorğunun nəticələri göstərdiyi kimi, getdikcə daha az vətəndaş tərəfindən dəstəklənir.

Sarkisyanın bloku ümumiyyətlə heç kim tərəfindən nəzərə alınmır və Köçəryan və onun Daşnaksütyundakı müttəfiqləri seçkilərin gələn bazar günü keçiriləcəyi təqdirdə 5%-lik baryeri böyük çətinliklə keçə biləcəklər.

Görünən odur ki, müxalifət Paşinyanla mübarizədə məğlubiyyətini etiraf edir. Bu barədə Müqavimət hərəkatının koordinatoru İşxan Saqatelyan "Yerkir Media"ya müsahibəsində bildirib. Saqatelyanın sözlərinə görə, Nikolanın sülh proqramı müxalifətin təqdim etdiyi mübarizə proqramından daha çox insanı cəlb edib. Təəccüblənmək və ağıllamağa nə var ki, cənab Saqatelyan? Həyata uyğun mübarizə proqramı hazırlayıb cəmiyyətə təqdim etmisinizmi? Xeyr, siz ancaq çox arzuladığınız hakimiyyəti ələ keçirməyə çalışaraq ölkədə vətəndaş müharibəsinə səbəb oldunuz. Qalan hər şey erməni cəmiyyətində maraq doğurmayan boş söhbətlərdir.

Ümumiyyətlə, həm iqtidar, həm də müxalifət "Gallup International" sorğusunun nəticələrini diqqətlə təhlil etməlidir ki, bu da erməni xalqının həm Paşinyandan, həm də Köçəryandan bezdiyini göstərdi. Amma yenə də respondentlərin cavablarına əsasən, Paşinyan artıq 2018-2019-cu illərdə olduğu kimi cəmiyyətdə qeyd-şərtsiz dayağa malik deyil. Amma insanlar hələ də başa düşürlər ki, o, iki şərdən kiçikdir və ona dözməyə hazırdır.

Ermənistan müstəqillik bəyannaməsinin qəbul edilməsinin 32-ci ildönümünü çox da bayram əhval-ruhiyyəsində qeyd etməyə çalışır. Hökumət Ermənistan Respublikasının müstəqilliyi uğrunda hər gün mübarizə apardığı görüntüsü yaratmağa çalışır. Bu görüntülər isə bayram deyil. Azərbaycan qoşunları bir həftə ərzində Ermənistanı Qarabağla birləşdirən Laçın dəhlizində üç yaşayış məntəqəsinində yerləşdi. Bu, Laçın şəhərinin özü, eləcə də Zabux və Sus kəndləridir.

Erməni mətbuatı xəbər verir ki, Qarabağın "Ərazi İdarəetmə və İnfrastruktur naziri" Hayk Xanumyan onların yanına gələrək Azərbaycanın yaşayış məntəqələrini məhz bu tarixə qədər tərk etməsi tələbini onlara çatdırıb. Bakının vaxtından əvvəl Xankəndindən Ermənistan sərhəddinə qədər yeni yol çəkməsi, bundan sonra Laçın dəhlizinin alternativsiz marşrut statusunu itirməsi diktə edirdi. Düzdür, Caliber.az-ın Azərbaycan redaksiyasının Laçına səfər edən jurnalistlərin verdiyi məlumata görə, kəndlərin son köçürülmə günü bir qədər təxirə salınıb. Azərbaycan nümayəndələrinin Rusiya sülhməramlıları ilə söhbətindən məlum olmuşdu ki, Laçın rayonunun sonuncu erməni sakinləri sentyabrın 1-dək oranı tərk edəcəklər. Bir həftə davam edən çaxnaşma çox güman ki, bu ərazilərdə fəaliyyət göstərən infrastrukturun köçürülməsi ilə bağlı qalan təşkilati məsələlərlə bağlı idi. Amma ermənilərin gedişi Azərbaycanın tələbi ilə tezləşdirildi. Əslində Azərbaycan burada taktiki gedişlər etdi, ermənilər düşünürdülər ki, avqustun 25-ə kimi Zabuxda, Susda və Laçın şəhərində qalacaqlar. Son dəqiqələri, saatları ehtiyat variant kimi saxlayan ermənilər düşünürdülər ki, məhz həmin vaxt həm evləri yandıracaq, həm də azərbaycanlılar üçün müxtəlif növ tələlət quraşdıracaqlar. Amma bu baş verмədi, daha doğrusu ermənilərin bəd planları ifşa olundu, Azərbaycan vaxtından əvvəl bu ərazilərə nəzarət əldə edə bildi.

İndi də ermənilrin Azərbaycanın Laçın rayonunda törətdikləri, daha doğrusu törətmək istədikləri təxribatlardan danışaq. Ermənilər özlərinin yaşadığı, əslində azərbaycanlılara məxsus evləri yandırmağa cəhd etsələr də bu mümkün olmadı, naməlum şəxslər isə Zabux kəndi ərazisindən keçən fiber-optik kabeli oğurlamağa vaxt tapa bildilərr və bu səbəbdən Qarabağın qalan sakinlərinin internetə çıxışı kəsilib. Beləliklə, informasiya terroru dövlət qurumlarının çağırışlara cavab vermək qabiliyyətini xeyli zəiflədib.

Bəli, Laçın dəhlizi artıq Azərbaycanın nəzarətindədir. Halbuki, iki il bundan əvvəl kimsənin ağlından da keçə bilməzdi ki, Azərbaycan Laçın rayonuna bu qədər sahib ola bilər. Reallıq belə idi. Amma Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi, sərkərdəliyi altında Azərbaycan Silahlı Qüvvələri mümkün olmayanı etdilər. Bu gün Laçın dəhlizi ilə bərabər Sərsəng su anbarının işlənməsi, nəzarəti də Azərbaycanın əlindədir. Sabah Gəncəliyevin Xankəndidə ofisinin açılışına, Ədliyyə orqanlarının fəaliyyətə vaşlamasına, bu şəhərdə Azərbaycan bayrağının dalğalanacağına kimsə şübhə etməsin, sadəcə buna inanmaq lazımdır. İnam bütün problemlərin açarıdır

**V.VƏLİYEV**

# Erməni jurnalisti xalqı Respublika meydanında özünü yandırmağa çağırdı!

*Ananiya Maakyan: "Respublika meydanına toplaşaraq üzərimizə benzin tökək və özümüzü yandıraq ki, bu dünyadan şərəflə yox olaq"*



**"44 günlük müharibəyə qədər mən Qarabağda inamla deyə bilirdim ki, erməni xalqı öz vətənini sevir və vətəninin xilası üçün ən şirin neməti olan həyatından belə keçməyə hazırdır. Təəssüf ki, 44 günlük müharibə və ondan sonra baş verən hadisələr tamamilə başqa şeylərdən bəhs edir". SİA xəbər verir ki, bu barədə erməni jurnalisti Ananiya Maakyan "Hraparak" qəzetindəki müəllif yazısında qeyd edib.**

Maakyan iddia edib ki, Ermənistan iqtidarı ölkəyə aid olan əraziləri (tarixi Qərbi Azərbaycan torpaqlarını - R.R.) də təhvil verməyə hazırlaşır və erməni xalqı öz susqunluğu ilə əslində qorxduğunu etiraf edir və s.

"Fakt budur ki, bizim xalqımız rüsvayçı 9 (10-R.R.) noyabr bəyanatı ilə barışıb və o da aydındır ki, nəinki Qarabağın itirilməsi ilə barışıb, hətta Ermənistanın bir sıra ərazilərini düşmənə (Azərbaycanı nəzərdə tutur-R.R.) verməyə hazırdır. Və bu fenomenin əsl adı - müharibədən yayınmaq deyil, sadəcə qorxudur", adıçəkilən erməni jurnalisti bəhs edilən müəllif məqaləsində yazıb.

"Bundan sonra bizim statusumuz nökər olacaq, maksimum nökər"

"Hraparak"ın yazarı dolayı yolla təmsil etdiyi erməni millətinin dünyada ən qorxaq və nökər xalq olduğuna eyham vurub, hətta ən kiçik müqavimət göstərməyə cürət edə bilmədiyini də yazıb. Ananiya Maakyan əlavə edib: "Əlbəttə, müharibə zamanı və ondan sonrakı məğlub diplomatiyamızın sayəsində biz aydın şəkildə gördük ki, dünyada tək qalmışıq və heç bir ölkə bizimlə yanaşı dayanmaq və bizi qorumaq marağında deyil, amma bu, o demək deyildi ki, biz özümüzü qorxaq kimi aparmalı və düşmənin əlinin çatdığı hər şeyi ona verməyimizlə körpə quzu kimi, hətta kiçik müqavimət belə göstərməməliydik.

Mən istisna edirəm ki, dünyadakı hansısa başqa bir xalq, başqa bir insanlar hətta ən qüdrətli ölkə olan ABŞ onlardan bir qarış torpaq almağı istəsəydi, həmin istəyə susmaqla razılıq bildirə və əlində olan sonuncu vasitə ilə ona müqavimət göstərməzdilər. Bundan sonra bizim statusumuz nökər olacaq, maksimum nökər".

Müəllif məqaləsinin ən kulminasiya nöqtəsi isə jurnalistin bütövlükdə erməni xalqını özünü yandırması ilə intihara əl atması, üstəlik, olmayan şərəflərini həmin vasitə ilə bərpa etmələri çağırışı olub.

"Məncə millət üçün, xalq üçün daha yaxşı olardı ki, Respublika meydanına toplaşaraq üzərinə benzin töksün və özünü yandırsın, ona görə ki, bu dünyadan şərəflə yox olsun", deyə Maakyan sözügedən məqaləsində yazıb.

***Rövşən RƏSULOV***

# "Belə insanlar pula, mala, mülkə görə hər əmələ əl atarlar"

**"Nə qədər paradoksal səslənsə də, mən bunu təbii qəbul edirəm. Heç görmüsünüz meyvəsiz ağaca daş atsınlar? Azərbaycan bu gün dünyanın ən sürətlə inkişaf edən ölkələri sırasındadır". Bunu Azadlıq Hərəkatçıları Birliyinin sədri Təhmasib Novruzov "Səs" qəzetinə açıqlamasında bildirib.**




Onun sözlərinə görə, müstəqil ölkəmiz həm ölkə daxili, həm də beynəlxalq aləmdə ilbəil yeni-yeni nailiyyətlər əldə edir: "Heç şübhəsiz, bu nailiyyətlərimizdən sevinən dostlarımız olduğu kimi, bundan narahat olan düşmənlərimiz və ya özünü dost kimi təqdim edən niqablı "tərəfdaşlarımız" da var. İkincilər və üçüncülər bu inkişafı görür və həzm edə bilmir, mane olmaq üçün yollar axtarır. Ən optimal yol isə sapı özümüzdən olan baltalardan istifadə olunmasıdır. Beləcə dünyanın bütün anti-Azərbaycan qüvvələri, başda erməni lobbisi olmaqla içimizdəki haram süd əmmişlərdən yararlanırlar, pul, maliyyə hesabına onları qışqırdırlar. Azərbaycanda yaşayıb özünü siyasi müxalifət adlandıran bəzi üzdəniraq siyasət dəllallarına da puldan pay ayırıb deyirlər ki, onlara dəstək versinlər. Tək bircə fakt söyləyəcəm. Sevinc Osmanqızı deyilən bir bloger Amerikada oturub deyir ki, kaş bizim də Paşinyan kimi liderimiz olaydı! Nə qədər gülünc, eyni zamanda, nə qədər ikrah doğuran mövqedir, şərhə də ehtiyac yoxdur. Belə "vətən sevdalı"lar hələ də məğlub, kapitulyant düşmən lideri öz qalib, dünya siyasətində nüfuz qazanan liderindən üstün görə bilirsə, deməli onda nə milli qan var, nə milli düşüncə. Milli qanı, milli düşüncəsi olmayan məxluqdan isə nə desən gözləmək olar. Beləlri pula, mala, mülkə millətini də satar, ailəsinin namusunu da.

Məncə, ölkə daxilindəki siyasilər, müxalifət ya iqtidar tərəfdarı olmasından asılı olmayaraq belələrinə qarşı vahid milli mövqe nümayiş etdirməlidirlər. Eyni zamanda, hesab edirəm ki, bizim hakimiyyət daxilindəki bəzi məmurlar da belələrindən istifadə etməyə çalışırlar. Fikrimcə, belə məmurlar təzliklə aşkara çıxarılmalı və onlara layiq olduqları yerləri göstərilməlidir. Bir sözlə, Azərbaycanın indiki qalibiyyətlərlə dolu inkişafına mane olmağa çalışan hər kəs, cəmiyyətdəki mövqeyindən asılı olmayaraq, erməni dəyirmanına su tökənlərdir ki, onların əlindən su qablarını almaq mühümdür".

***Gülyana***



Mətanət MƏMMƏDOVA

# Bura eyni şəhərdimi?..

***Vəziyyət elə gətirir ki, tez-tez özünə bu sualı verməli olursan: görəsən bura eyni şəhərdimi? Soruşarsınız ki, bu nə sualdır sən öz-özünə verirsən belə? Necə yəni bura eyni şəhərdir? Nə demək istəyirsən ki, bununla?***

Bu elə bir məsələdir ki, yalnız başına gələn məni anlayar. Sözsüz, aramızda olanlar var ki, onlar da mənim fikrimdədirlər və əminəm ki, tez-tez özlərinə sual verirlər: bura eyni şəhərdimi?

İndi mən açıqlayan kimi bəlkə də yüzlərlə adam mənim fikrimə şərik olacaq. Belə isə açıqlayım, siz də görün, mən haqlıyam, ya yox. Məsələn, işdən evə qayıdanda yolunun üstündəki bir marketə girirsən, evə lazım olan ərzaqlardan almaq istəyirsən. Götürürsən səbəti, yığırsan, kassaya yaxınlaşıb pulunu ödəyib gedirsən. Evdə götürqoy edirsən ki, necə oldu ki, mən bu qədər pul xərclədim? Nə aldım ki?

Birinci, qiymətlər hər gün yox, hər saat artır, bu, məsələnin bir tərəfi. İkincisi, kassa çıxarışına göz gəzdirəndə görürsən ki, sən şəkər tozunu bu gün 1 manat 90 qəpiyə almısan. Düşünürsən ki, İlahi, bəs şəkər tozunun qiyməti təzəcə qalxıb 1 manat 50 qəpik olmamışdı, nə tez yenidən qalxdı? Deməli, bir araşdırma aparmalısan. Səhəri gün işə gedəndə başqa bir marketə də girirsən, baxırsan ki, yox, sən dünən baha qiymətə almısan, burada şəkər tozunun bir kiloqramı 1 manat 50 qəpikdir.

Tək şəkər tozundan söhbət getmir ha... Birdən düşünərsiniz ki, tək onun qiymətində fərq var. Xeyr, istənilən ərzaq məhsulunu almaq üçün özünüzə əziyyət verib bir neçə marketə girin, dediklərimi təsdiqləyəcəksiniz. Çünki market və mağazaların hər birində qiymətlər fərqlidir. İstər günəbaxan, istər kərə yağları, pendirlər, qatıq, makaron, vermişel, istərsə də yuyucu, təmizləyici vasitələr, şampunlar, sabunlar və sair, hamısı bir-birinə yaxın və bir-birinə uzaq mağazalarda fərqli qiymətlərlə təklif olunur.

Maraqlıdır, deyilmi? Adam istər-istəməz bir anlığa necə deyərlər, başını itirir, çıxara bilmir ki, mən haradayam. Dünəndəmi bu şəhərdə idim, bu gündəmi bu şəhərdəyəm.

Söhbət həm də tək ərzaq məhsullarından getmir, eyni zamanda meyvə-tərəvəzdən də gedir ki, onların qiymətləri ayrı-ayrı yerlərdə daha fərqli, bu fərq isə daha dözülməzdir. Məsələn, şəhərimizin bir yerində eyni rayonun, eyni növ pomidorunun bir kiloqramının qiyməti 70, başqa bir yerində 80, daha başqa bir yerində 1 manat, 2 manat, 2 manat 50 qəpik və sairdir. Göyərti şəhərin bir başında 10 qəpik, digər başında 20-30 qəpikdir. Bunun kimi kartof, soğan, xiyar, qarpız, hər növ meyvə də eynidir. Hələ şəhərimizin o başını, bu başını bir kənara qoyaq, yanaşı mağazalarda qiymət fərqləri adama daha çox təsir edir.

Düşünürsən ki, bu eyni şəhərdə müxtəlif qiymətləri kim qoyur bu ərzaq və meyvə-tərəvəz məhsullarına? Mən soruşdum meyvə-tərəvəz satanlardan ki, nə üçün bax o mağaza ilə sizin aranızda qiymətlərdə kəskin fərq var. Cavab qısa və konkret oldu: nə qədər nəqliyyat xərci çəkirik.

Yəqin adam bu cavabla düşündü ki, məsələyə aydınlıq gətirdi. Mənim də susmağımı görüb lap düşündü ki, cavabını belə alarsan bax. Lakin mən ona görə susurdum ki, artıq sözün bitdiyi yerdə idim... O isə bunu gec anlayardı. Çünki başı camaata baha qiymətə meyvə-tərəvəz sırımağa qarışmışdı.

Yenə də çox maraqlıdır, görəsən ölkəmizdə market və mağazalarda insanlara təklif olunan ərzaq və meyvə-tərəvəz məhsullarının qiymətinə nəzarət edən bir qurum varmı? Məncə var, ancaq nə üçün nəzarət etmirlər, buna cavab axtarıram. Ümidvaram ki, siz də mənimlə razılaşarsınız ki, biz bu suala cavab tapanda eyni şəhərdə yaşadığımızı da hiss edəcəyik. Yox, əgər bu sualın cavabı hələ ki, yoxdursa, onda uzun müddət buranın eyni şəhər olduğu şübhəsi ilə yaşamağa davam edəcəyik...

# Artmaqda olan meşə yanğınlarının qarşısını necə almalıyıq?

*Dünyada elm və texnikanın inkişafı, istər-istəməz insanların ölümü, maddi sərvətlərin məhv edilməsi, ətraf mühitin kobud şəkildə pozulması halları ilə nəticələnən hadisələrdən yan keçmir. Təbii fövqəladə hallar mövzusu getdikcə aktuallaşır. Daşqınların, zəlzələlərin, vulkan püskürmələrinin sayı ildən-ilə artır.*



ARAŞDIRMA

Meşə yanğınları təbii fəlakətlərdir və meşə yanğınları ən ciddi problemlərindən biridir. Son zamanlar meşələrin ümumi sahəsi qeyri-mütənasib şəkildə azalmışdır. Və bu azalmanın səbəblərindən biri də meşə və torf yanğınlarıdır. Hazırda hər il çoxlu meşə yanğınları baş verir və meşə və torf yanğınlarının fəlakətli hadisələri artır. Onların bəşəriyyətə gətirdiyi zərər çox böyükdür.

Təbii yanğınlar anlayışına meşə yanğınları, çöl və taxıl massivlərinin yanğınları, qalıq yanacaqların torf və yeraltı yanğınları daxildir. Meşə yanğınları meşələrin və digər maddi sərvətlərin məhvinə, hətta bəzən insan tələfatına səbəb olan ən çox yayılmış təbiət hadisələri sırasındadır. Statistikalar göstərir ki, zəif yerüstü yanğının yayılma sürəti 1 m/dəq-dən çox deyil, orta hesabla 1-dən 3 m/dəq-ə qədər, güclü - 3 m/dəq-dən çox olur. Zəif yeraltı yanğın, yanma dərinliyi olmayan yanğın hesab olunur. 25 sm-dən çox, orta - 25 ilə 50 sm arasında, güclü - 50 sm-dən çox dərinlikdə b aş verir. Yanğınlar meşələrin məhvinə, heyvan və bitkilərin tələf olmasına, yanğın zonasında istilik balansının pozulmasına, atmosferin yanma məhsulları ilə çirklənməsinə, torpaq eroziyasına səbəb olur. Meşə yanğınları tez-tez yaralanmalara, xəstəliklərə və ölümlərə səbəb olur.

Təbii yanğınların mənbəyi təbii səbəblər ola bilər: şimşək çaxması, özbaşına yanma, ağacların sürtünməsi. Əksər hallarda təbii yanğınlar insanların yanğın təhlükəsizliyi tələblərini pozması nəticəsində baş verir. Təbii yanğınların təxminən 60-70%-i yaşayış məntəqələrindən 5 kilometr radiusda baş verir. Bu zonada insanlar çox vaxt "təbiətdə" vaxt keçirirlər.

Təbii yanğınların əsas səbəbləri: sönməmiş siqaret, yanan kibrit, atəşdən sonra yanan çubuq, günəş şüalarını sındıran şüşə butulka, avtomobilin səsboğucusundan çıxan qığılcımlar, köhnə otların, küləşlərin, zibillərin yanması meşə yaxınlığında və ya torf sahəsi, kənd təsərrüfatında istifadə üçün yanğından təmizlənən meşə torpaqları və ya meşə otlaqlarının inkişafı və s daxildir. təbii yanğınların əsas potensial mənbələrindən biri tonqaldır. Bəzi hallarda təbii yanğınlar qəsdən yandırma, texnogen qəzalar və ya fəlakətlər nəticəsində baş verir.

Meşə yanğını meşə ərazisinə kortəbii yayılan bitki örtüyünün nəzarətsiz şəkildə yanmasıdır. Bu fenomen çox sürətli və tez-tez baş verir. Bu cür fəlakətlər və onlarla bağlı yaranan fövqəladə hallar hər il ölkənin müxtəlif bölgələrində baş verir . Meşə yanğınları ağac və kolları, meşədə yığılmış məhsulları, bina və tikililəri məhv edir. Yanğın nəticəsində zəifləmiş plantasiyalar zərərli xəstəliklərin mərkəzinə çevrilir ki, bu da təkcə yanğından zərər çəkənlərin deyil, həm də ətrafdakı canlı aləmin məhv olmasına səbəb olur. Yanğınlar nəticəsində meşənin qoruyucu, su-mühafizə və digər faydalı xassələri azalır, qiymətli fauna tükənir. Yanğınların 80%-ə qədəri iş və istirahət yerlərində yanğında baş verir. İşləyərkən əhalinin yanğın təhlükəsizliyi tədbirlərinin pozulması, habelə meşədə nasaz avadanlıqdan istifadə edilməsi nəticəsində baş verir. Ağac kəsmə sahələrində meşə yanğınları əsasən yaz aylarında kəsmə sahələri yanğın üsulları ilə təmizləndikdə - ağac kəsmə qalıqlarının yandırılması zamanı baş verir.

Meşə yanğınlarının baş vermə səbəblərini və inkişaf prosesini təhlil edərək, meşələrdə yanğın təhlükəsinin hava şəraitindən əhəmiyyətli dərəcədə asılı olduğunu, proqnozlaşdırma üçün hazırda kifayət qədər qabaqcıl üsulların mövcud olduğunu görmək asandır.

2021-ci il isə meşə yanğınlarının sayına görə rekord vurub. Hesablamalara görə, 18,16 milyon hektardan çox meşə yanıb.Ekoloqlar, mütəxəssisləri və digər ekspertlər həyəcan təbili çalırlar - əgər yanğın meşələri öldürməkdə davam edərsə, o zaman iqtisadi itkiləri saymasaq, ətraf mühitə bərpası mümkün olmayacaq dərəcədə ziyan dəyəcək.

Ölkə ərazisində son günlərdə ərzində ümumilikdə 109 -dan çox yanğına çıxış hadisəsi qeydə alınıb. Bunun 47-si Şimal-qərb və Şimal regionunun payına düşüb. Təxminən 500 hektara yaxın ərazini əhatə edən bu yanğınlar arasında biçilmiş taxıl, quru ot, kol-kos sahələri və meşə massivləri üstünlük təşkil edir.

Şabran rayonunun Xəlfələr kəndi ərazisində biçilmiş taxıl sahəsində başlayan yanğının havanın isti və küləkli olması səbəbindən qısa zamanda genişlənərək bir neçə fərdi ev və yardımçı tikiliyə zərər vurub. Havanın isə isti və küləkli olması səbəbindən yanğınsöndürmə işlərini çətinləşdirsə də, yanğının genişlənməsinin qarşısının alınması və söndürülməsi istiqamətində təxirəsalınmaz tədbirlər həyata keçirilir.

Ekoloji siyasətin əsasını təşkil edən ətraf mühitin sağlamlaşdırılması sahəsində nəticə əldə etmək məqsədilə respublikamızda Avropa qanunvericiliyinin tələblərinə uyğunlaşdırılmış bir sıra mühüm qanunlar qəbul olunmuş, normativ-hüquqi sənədlər, dövlət proqram-



ları hazırlanmış və təsdiq edilmişdir. Respublika üçün aktual olan ekoloji problemlərin dayanıqlı inkişaf prinsipləri əsasında həll edilməsi məqsədilə müvafiq dövlət proqramları çərçivəsində tədbirlər görülür.

Bu sözləri SİA-ya açıqlamasında Kimya elmləri üzrə fəlsəfə doktoru, Ekoloq **Sadiq Həsənov** qeyd edib.

Lakin bir çox tədbirlərin görülməsinə, planların həyata keçirilməsinə baxmayaraq təbiət üçün təhlükə doğuran proseslər qarşısı alınmaz dərəcədə genişlənməkdədir.



Ekoloq hesab edir ki, meşə yanğınlarının qarşısının alınması üçün hamıda məsuliyyət olmalıdır. Xüsusən, yaxınlıqda əkin sahələri olan əkinçilər sahələr biçildikdən sonra, guya, torpağın canlanması üçün biçilmiş əraziləri yandırırlar. Bu səbəblə dəfələrlə meşə yanğınları olub.

Belə yanğınların qarşısını almaq üçün ən vacib olan həmin əraziləri müasir texnikalarla təmin etmək və nəzarət altında saxlamaqdır. Ümumiyyətlə meşələr odundan, ağacdan gördüyümüz yarpaq töküntüdən ibarət deyil. İnsana nəfəs gətirən ağciyərlərdir ki, onları təmin edən oksigen məhz həmin yanan ağacların, meşələrin məhsuludur. Təcrübələr göstərir ki, bir il ərzində 1 ədəd şam ağacı ilə iki ailəni təmin eləyə bilir. Yanğınlar təkcə meşələri yox, həmçinin torpağın üst qatında olan mikro orqanizmləri məhv edir. Hansı ki, onlar, ağac qırıntıdan, çürüntüdən,yarpaq qalıqlarından əmələ gəlmişdir. Onların yanması da torpaqda olan bir çox canlı orqanizmlərin məhvinə gətirib çıxarır.

Tez tez baş verən yanğınların qarşısının almasa gələcəkdə çox böyük fəsadlara yol açacaqdır. Ən əsas məsələ sayılan onların bərpası da təəssüflər olsun ki, uzun zaman aparır həm də maddiyyat tələb edir. Burda təkcə dövlətin üzərinə yük düşmür, həyəcan təbili çalmaq lazımdır ki, vətəndaşlar da dərhal bu işlərə qatılmalıdır.

**Dövlət Yanğın Nəzarəti Xidmətinin, Dövlət yanğın nəzarəti işinin təşkili şöbəsinin rəisi, daxili xidmət polkovnik-leytenantı Cəmil Xudiyev** isə qeyd edir.

Aparılmış araşdırmalar və müşahidələr onu deməyə əsas verir ki, ölkəmizdə meşə yanğınları antropogen amillərin təsirindən baş verir. Belə ki, meşə və meşə ətrafı yaşayış məntəqələrində, əkin sahələrində, istirahət və digər məqsədlər üçün meşələrə üz tutan vətəndaşların yanğın təhlükəsizliyi qaydalarına riayət etməməsi, odla ehtiyatsızlığı, qadağan edilmiş qanunsuz odun kömürü istehsalı məqsədilə ocaqxanaların təşkili və çox təəssüfki qəsdən törədilmiş yanğınlar meşələrdə yanğınların baş verməsilə nəticələnir. Dövlət Yanğın Nəzarəti Xidmətinin əməkdaşları tərəfindən Xidmətin rəhbərliyinin müvafiq əmri əsasında meşələrin yanğın təhlükəsizliyinin təmin edilməsi məqsədilə həyata keçirilmiş yoxlamalar və araşdırmalar nəticəsində meşə və meşəətrafı ərazilərdə qanunsuz odun kömürü istehsalı məqsədilə təşkil edilmiş ocaqxanalar aşkar edilmişdir. Belə ki, 2021-ci ildə 23 ədəd, 2022-ci ildə isə 9 ədəd qanunsuz ocaqxana fəaliyyəti aşkar edilmişdir. Eyni zamanda 2022-ci ilin ötən dövrü ərzində aparılmış məqsədyönlü araşdırmalar zamanı 6 ünvanda ərazilərin qəsdən yandırılması faktları aşkar edilmiş, həmin şəxslər barəsində müvafiq tədbirlər görülərək toplanmış materiallar aidiyyəti üzrə məsələyə hüquqi qiymət verilməsi üçün hüquq mühafizə orqanlarına göndərilmişdir.

Ardı Səh. 12

# Artmaqda olan meşə yanğınlarının qarşısını necə almalıyıq?



Əvvəli-Səh-11

### Yanğınlar nə qədər əraziyə yayılıb və əsasən hansı rayonları əhatə edir?

Baş vermiş yanğınlar meşə, əkin sahələri, eləcə də bələdiyyə və dövlət fondu torpaqları olmaqla geniş ərazini əhatə etmişdir. Yanğına məruz qalmış ümumi sahələrin hesablanması təhqiqat prosesinin tərkib hissəsi olmaqla xüsusi texniki vasitələrdən istifadə olunaraq ölçmə işləri həyata keçirilərək müəyyən ediləcəkdir. Məlumat üçün bildirirəm ki, yanğınlar əsasən Şabran, Siyəzən, Quba və Qəbələ rayonlarının ərazilərini əhatə etmişdir.

Yanğın hadisələri baş vermiş ərazilərin mürəkkəb dağlıq relyefdə olması, texnikaların hərəkəti üçün əlverişsiz şərait, meteoroloji amillərin təsiri yanğınların söndürülməsinə ciddi çətinliklər yaratmışdır. İsti və küləkli havaların üstünlük təşkil etməsi yanğınsöndürmə əməliyyat şəraitini çətinləşdirmişdir. Qeyd olunan səbəblərdən yanğın genişlənərək ətraf ərazilərə yayılmışdır.

Azərbaycan Respublikası meşələrində yanğın təhlükəsizliyinin etibarlı təmin edilməsi məqsədilə Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Nəzarəti Xidmətinin rəisinin müvafiq əmri əsasında Xidmətin struktur bölmələrinin əməkdaşları tərəfindən yay mövsümü öncəsi respublika ərazisində meşə sahələrində yanğın-texniki müayinələr həyata keçirilmişdir. Müayinələrin nəticələri əsasında aşkar edilmiş yanğın təhlükəsizliyi qaydalarının pozulması hallarının aradan qaldırılması, xüsusi riskli ərazilərdə yanğına qarşı rejimin gücləndirilməsi və nəzarət tədbirlərinin artırılması məqsədilə meşə təsərrüfatı mərkəzləri, aidiyyəti yerli icra hakimiyyəti orqanları qarşısında məsələlər qaldırılmış və icrası nəzarətə götürülmüşdür. Müayinələr zamanı aşkar edilmiş yanğın təhlükəsizliyi qaydalarının pozuntularına, eləcə də yüksəkgərginlikli elektrik hava xətləri keçən, avtomobil yolları və əkin sahələri ilə həmsərhəd ərazilərdə yanğın təhlükəsizliyi etibarlı təmin edilmədiyinə görə cavabdeh şəxslər barəsində inzibati xəta haqqında protokollar tərtib edilərək inzibati tənbehvermə haqqında qərarlar qəbul edilmişdir.





Eyni zamanda yuxarıda qeyd edilən müvafiq əmrin icrasının davamı olaraq əhali arasında Xidmətin əməkdaşları tərəfindən, eləcə də Xidmətin rəhbər heyətinin iştirakı ilə Daxili İşlər Nazirliyinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, aidiyyəti digər qurumların nümayəndələri ilə birgə meşə və əkin sahələrində yerində olmaqla, praktiki və əməli işlər görülməklə geniş miqyaslı maarifləndirmə tədbirləri həyata keçirilmiş, KİV-nin köməyindən istifadə olunaraq daha böyük auditoriyanın əhatə olunması təmin edilmişdir.



Yanğının əsas baş vermə səbəbləri arasında insan faktoru rol oynayır. Yanğın səbəblərinin 70-80 faizinə səbəb bu olur. İnsanlar meşə ərazilərində istirahətə gedirlər, qəsəbələrdən, kəndlərdən meşələrə gedib-gəlir, müəyyən meyvə və giləmeyvə yığırlar, bəzən bu cür vəziyyətlərdə odla ehtiyatsız davranma halları olur. Bu sözləri **Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğından Mühafizə Xidmətinin rəis müavini polkovnik Rza Xudiyev** deyib.

Meşənin hansısa hissəsində tonqal qalaya bilərlər, ocaq qalayıb, samovar dəmləyə bilərlər. Həmin adamlar çıxıb gedirlər, amma yandırdıqları közü söndürmürlər. Külək başlayır, bildiyiniz kimi dağlıq ərazilərdə külək çox olur, qısa zamanda yanğının böyük əraziyə yayılmasına səbəb olur. Bilirsiniz ki, meşələr dağlıq ərazilərdə yerləşir, oranın relyefi o qədər mürəkkəbdir ki, texnikanın, şəxsi heyətin hərəkəti müəyyən dərəcədə məhdud olur. Yanğın baş verəndə qısa zamanda müxtəlif istiqamətlərdə yayılmağa başlayır ki, bu zaman tələb olunan texnikanın qısa zamanda əraziyə cəlb olunması çətin olur. İlkin olaraq yanğın yerinə 1-2 avtomobil gedir, amma sözsüz ki, onların gücü çatmır. Bu səbəbdən həmin əraziyə digər rayonlardan kömək göndəririk. Bu da vaxt itkisinə gətirib çıxarır ki, yanğın qısa zamanda böyük sahələrə yayılır və orada yanğının söndürülməsi mürəkkəb olur. Tikanlı kollar, keçilməz yollar, sıldırımlı qayalar çətinlik yaradır. Yanğının söndürülməsi işini təşkil etmək üçün külli miqdarda texnika, canlı qüvvə tələb olunur. Bütün bunlar cəmləşdirilməli və qərargah yaradılmalıdır.

***Havar Şəfiyeva***

# Öz-özündən bezən erməni cəmiyyəti



***Gallup International təşkilatının iyul-avqust aylarında keçirdiyi sorğuların nəticələri Ermənistan cəmiyyətinin, bu ölkənin ictimai fikrinin nə yerdə, necə olduğunu ortaya qoydu. Sorğunun nəticələri göstərdi ki, ermənilər nə iqtidardan, nə də müxalifətdən razı deyillər, əksinə, narazıdırlar. Belə olan halda, ötən il Ermənistanda keçirilən seçkilərin nəticələri belə sual doğurur və ermənilərin səsləri belə təəccüblüdür. İndi erməni cəmiyyətinin artıq özünün belə özündən bezdiyi müşahidə edilir.***



© Getty Images/AFP/K. Minasyan



Hal-hazırda seçkilər keçirilsə, erməni cəmiyyətinin kimə necə səs verəcəyi dəqiq bəlli olmasa belə, istər Paşinyana, istərsə də onunla müxalifətdə olanlara çox az sayda səs veriləcəyi bir reallıqdır. Bu reallıq qeyd olunduğu kimi, Gallup International təşkilatının sorğusunun nəticələrindən ortaya çıxır. Artıq görünür ki, potensial seçicilərin hər iki siyasi qüvvəyə rəğbəti azalıb. Apreldə dərc olunmuş sorğulara əsasən, respondentlərin 20,4%-i hakimiyyətə səs verməyə hazır idi, indi isə bu rəqəm 16,1%-ə qədər azalıb. Keçirilən sorğuların nəticələrinə görə, respondentlərin 8,3 faizinin "Ermənistan" blokuna səs verəcəyi gözlənildiyi halda indi bu rəqəm, yuxarıda qeyd edildiyi kimi, azalaraq cəmi 5,1% təşkil edir.

Sorğulara görə, respondentlərin 32,8 faizi seçkilərdə səsvermədə iştirak etməyəcəyini bildirib. Onlardan 12,1% -i cavab verməkdən belə imtina edib, 15,6%-i cavab verməkdə çətinlik çəkib. Belə görünür ki, seçkilər yaxın gələcəkdə keçirilsəydi, sorğulara görə, yalnız yuxarıdakı iki qüvvənin parlamentə düşmək şansı var idi, qalan partiyalar baryeri qəti şəkildə aşa bilməz. Məsələn, üçüncü prezidentin rəhbərlik etdiyi "Mənim şərəfim var" bloku cəmi 2,7% səs toplayıb. Bu rəqəm ona olan etibarın demək olar ki, yox olduğunu təsdiqləyir. Ümumiyyətlə, erməni cəmiyyətinin bütün siyasi qüvvələrə etibarının qalmadığı günün reallığıdır və nəinki siyasi qüvvələrdən, bu cəmiyyətin özündən belə bezdiyi özünü dərhal, kəskin şəkildə büruzə verir.

İlk növbədə, hakimiyyətdən başlasaq görərik ki, vəziyyət hansı haldadır. Hakim elitaya ictimai inamın, etibarın və reytinqin aşağı düşməsi asanlıqla izah olunur.

Ermənistanda həyatın yaxşılaşdırılması ilə bağlı bütün vədlərə və hətta bu ölkədə guya sosial-iqtisadi fonun yaxşılaşdığı və ÜDM-in artdığı barədə bəyanatlara baxmayaraq, reallıqda hər şey ermənilər üçün sevindirici deyil. Əksinə, daha da acınacaqlı olaraq qalmaqdadır. Hətta Ermənistan vətəndaşları üçün bir qədər də vəziyyət çətinləşib. Ərzaq və gündəlik tələbat mallarının demək olar ki, hər gün bahalaşdığı da daha acınacaqlı vəziyyət yaradıb. Bu ölkədə ərzaq mallarını almaq belə vətəndaşlar üçün çətinləşib. Ona görə ki, əhalinin böyük təbəqəsi üçün əlçatmaz hala gələn işsizlik və inflyasiyanın artması kimi bir problemləri var. Vəziyyətin günü-gündən pisləşməsini hər bir Ermənistan vətəndaşı hiss etməkdədir. Maaşlar və pensiyalar guya ki, artırılır, amma qondarma artımları heç cür bahalaşma ilə ayaqlaşa bilmir.

Əgər bir ölkənin, ələlxüsus Ermənistan kimi səfalət içərisində olan bir ölkənin iqtisadiyyatı pis vəziyyətdədirsə, bu vəziyyət hələ günü-gündən də pisləşirsə, əhalisinin vəziyyətinin yaxşılaşacağı barədə hansısa fikir, proqnoz belə söyləmək yanlışlıqdır. Halbuki, bu ölkə hakimiyyəti bu acınacaqlı vəziyyətin fonunda utanmadan yaxşı vəziyyət olacağı barədə vədlər verirdi və bu vədlərin yalan olduğunu hər bir erməni yaxşı bilir. Məhz buna görə də Ermənistan cəmiyyəti heç bir siyasi qüvvəyə, heç kimə inanmır, etibar etmir. Ermənilər artıq tamam beziblər və özlərini aldanmış hesab edirlər.

Ermənistanda insanlar hər şeyə dözməkdən yorulublar. Hər dəfə verilən vədlər reallığı əks etdirmir. Hər bir hakimiyyət qüvvələri ancaq sözlə Ermənistan vətəndaşlarını doydurublar və əslində, bu ölkə vətəndaşlarının ehtiyacları qarşılanmayıb. Səfalət içərisində olan ermənilərin bundan sonra belə kimə isə etibar edəcəkləri inandırıcı deyil, çünki yetərincə aldadılıblar və bundan sonra da aldadılmayacaqlarına zərrə qədər ümidləri yoxdur. Təsadüfi deyil ki, ermənilər artıq çoxdandır ki, ölkələrini tərk edir, başqa bir ölkəyə köçərək dolanışıqlarını, yaşayışlarını təmin etmək üçün vətən dedikləri yerlərə bir də qayıtmaq istəmirlər. Əbəs yerə deyil ki, erməni əhalinin Ermənistanı tərk etməsi bu ölkədə həyəcan təbilinə səbəb olub. Müvafiq qurumlardan tutmuş, ayrı-ayrı politoloqlara, sosioloqlara qədər bu vəziyyətin gələcəkdə daha kritik olacağını hələ də proqnozlaşdırırlar.

Laçın köçü də öz növbəsində ölkədə problemin üstünə problem gətirib. Laçından və ətrafından köç edən ermənilər İrəvana üz tutublar. Nəzərə almaq lazımdır ki, onlar da öz problemləri ilə Ermənistana köçüblər. Bu problemlər sırasında işsizlik, dolanışıq, minimum yaşayış normativlərinin ödənilməsi və sair daxildir, amma görək Ermənistan bunun öhdəsindən gəlmək iqtidarındadırmı? Xeyr, bunun öhdəsindən gəlmək Ermənistana görə deyil və buna inam heç kimdə də ola bilməz. Ona görə ki, köç edənlər öz gözləri ilə görürlər ki, onsuz da Ermənistanda yaşayanların özlərinin belə işsizlik, dolanışıq kimi sıxıntıları kifayət qədərdir. Üstəlik, bir də köç edənlərin Ermənistana doluşması vəziyyəti xeyli dərəcədə çətinləşdirib də. Bir sözlə, köç edənlərin Ermənistana doluşması bu ölkə vətəndaşlarının heç ürəyincə deyil və bundan çox narahatdırlar. Yəni ermənilər nəinki indiki hakimiyyətdən, müxalifətdən, hətta köç edənlərdən, özlərindən belə beziblər.

İşğalçılıq siyasəti yürüdən ölkənin hakimiyyəti müharibədən qorxur, başa düşür ki, daha böyük məhvolma təhlükəsi burunlarının ucundadır və əgər razılaşmalara əməl edilməsə daha acı həqiqət, reallıqla qarşılaşmalı olacaqlar. Bunun isə öhdəsindən gələcək nə güc, qüvvə, nə də iqtisadi potensial var. Əksinə, Ermənistan gündən günə borclanmasını artırır, əvəzində bütün dövlətlər, beynəlxalq təşkilatlar arasında etibarını, olmayan nüfuzunu bir az da itirir. Bunu görən Ermənistan vətəndaşları necə bezməyə bilərlər? Ermənistan vətəndaşı ölkəsinin inkişafını müşahidə edə bilmirsə, gələcəyini görmürsə, yalnız minimum yaşayış normativlərini belə qarşılaya bilmirlərsə, niyə də ölkəni tərk etməməlidirlər?

Ermənistan müxalifəti də tamamilə nəzərdən düşüb. Müxalifəti, onun dediklərini hesaba alan demək olar ki, yoxdur. Bütün erməniləri məyus edən müharibənin nəticələrindən sarsılan və ilk aylardan da ümidsizliyə qapılan müxalifət ayağa qalxaraq indiki hakimiyyəti devirməyə cəhd etdi. Hətta hərbçilərin bir hissəsi andını dəyişərək müxalifətin tərəfinə keçdi. Ancaq nə hakimiyyətdən üz döndərən generallar, nə diaspora və nə də Rusiyanın dəstəyi Paşinyanın rəqiblərinə öz gücünü göstərə bilmədi. Ermənistan müxalifəti cəmiyyətin əksəriyyətini öz bayrağı altında toplaya bilmədi. Sözügedən sorğunun göstərdiyi də budur və sorğunun nəticələri təsdiq edir ki, müxalifəti getdikcə daha az vətəndaş dəstəkləyir. Bir sözlə, Ermənistan vətəndaşları müxalifətdən də bezib. Sarkisyanın bloku da ümumiyyətlə heç kim tərəfindən nəzərə alınmır. Köçəryan və onun Daşnaksütyundakı müttəfiqləri isə seçkilər keçirilsə 5%-lik baryeri belə keçə bilməzlər, yaxud keçsələr də bunu çətinliklə keçə bilərlər. Çünki Ermənistan vətəndaşları Köçəryanın hakimiyyətinin "cazibəsini" unutmayıblar. Təbii ki, onun bu illər ərzində dəyişdiyinə inanacaq dərəcədə də sadəlövh deyillər. Gallup International-ın son sorğusunun nəticələri göstərdiyi kimi, insanlar yavaş-yavaş aydın görməyə başlayırlar və bilirlər ki, o da öz xalqına xor baxır. Bu reallığı görmək üçün çox araşdırmaya belə ehtiyac yoxdur və adi gözlə görünür.

Görünən odur ki, müxalifət Paşinyanla mübarizədə məğlubiyyətini artıq qəbul da edir, etiraf da. Bu barədə Ermənistan fraksiyasının deputatı, Müqavimət hərəkatının koordinatoru İşxan Saqatelyan telekanallara müsahibələrində də bildirib. Saqatelyanın sözlərinə görə, Nikolun sülh proqramı müxalifətin təqdim etdiyi mübarizə proqramından daha çox insanı cəlb edib. Maraqlıdır, Saqatelyanın təəccüblənməsi üçün burada nə var? İnsanlar görmürlərmi ki, normal həyata uyğun mübarizə proqramı hazırlayıb cəmiyyətə təqdim etməyiblər? Görmürlərmi ki, müxalifətin də arzuladığı hakimiyyəti ələ keçirməkdir və bu arzuları ölkədə vətəndaş müharibəsinə səbəb olur? Elə buna görə də onların sözləri erməni cəmiyyətində maraq doğurmayan boş söhbətlər kimi qəbul edilir. Ümumiyyətlə, Ermənistanda həm iqtidar, həm də müxalifət "Gallup International" sorğusunun nəticələrini diqqətlə təhlil etməlidir ki, ölkədə vəziyyəti görsünlər. Təhlil etsələr də, təbii ki, görəcəklər ki, ermənilər nəinki onlardan, hətta özlərindən də beziblər. Çünki özləri də seçimlərində yanılıblar və bu yanlışlıqları onları uçurumdan-uçuruma sürükləyib və bunun acısını dadmaqdadırlar.

***İnam Hacıyev***

# Özünü "Ədalətin müdafiəçisi" sayan rəzil qadın - Gültəkin Haycıbəyli

*Yalan, qəddarlıq, satqınlıq, nifrət, ikiüzlülük - Gültəkin Hacıbəylinin əsl "simasıdır"*



O Gültəkin Hacıbəyli ki, dünənə kimi deputat olduğu zamanlarda onun apardığı yalnız bir şeyi - Azərbaycanda mütləq demokratiyanın hökm sürdüyünü, insan hüquqlarının azadlığını, heç bir siyasi məhbusun olmadığını və sovet şinelindən qopmuş bu fenomenal ərazinin - yeni demokratiya beşiyi olmasını sübut etmək üçün təkcə doğma Goranboy ərazisində deyil, onun üçün yad olan Strasburqda vuruşurdu. İndi hər şeyi, hər kəsi əzməyə səy göstərən, ölkəmizdə olan uğurlu nailiyyətləri və qələbələri sosial şəbəkələrdən böhtanlar, iftiralar deməklə, özünü "ədalətin müdafiəçisi" sayan rəzil qadın G.Hacıbəyli satqınçılıq "simvolu" olan AXCP sədri Əli Kərimlinin "şinelinə" elə girib ki, hətta yaddaşsızlığı gəlib çıxıb.

10 il layiq olmadığı "yüksəkliyə" qalxan Gültəkin Hacıbəyli artıq adi insanlara və onların əzablarına diqqət etmək vərdişini itirib. "Bəyli" olmuş Hacıyeva, ziyalı və ləyaqətli insanların üzərində əsl divan təşkil edib. Onun əməllərinin qurbanı tək şəhid ailələləri, müharibə veteranları, hətta əməllərinin qurbanı onun doğma dayısı - Goranboyda yaşayan yaşlı İdris kişi olub ki, o, onun "Emil" MMC müəssisəsini əlindən alıb. Təkcə bu deyil! O, ona məxsus gips karyerini əlindən alıb. Doğma dayını çörəksiz qoymaq! Bunun üçün daş ürəyə malik olmaq lazımdır. Əvvəllər Goranboy rayonunda olarkən rayon camaatının "Gültəkin Hacıbəyli məmurdan tutmuş adi süpürgəçiyə qədər bezdirib" sözlərini eşidəndə təəccüb edirdim. Rayon camaatı bildirirdi ki, o həmişə öz seçki dairəsinin bütün dövlət məmurlarına vergi qoymağa vaxt tapırdı və rayon rəhbərinin yanına gəlir, ondan 5 min tələb edirdi. Ancaq Milli Məclisdə o "zülm edilmiş azərbaycanlıların" sosial hüquqları haqqında danışırdı. Bu danışıqla da o nə az nə çox - 40 hektar torpaq təsərrüfat sahəsinə malik oldu! Şərəf haqqında danışan G.Hacıyeva 2005-ci il seçkilərinə - "Mən Goranboyu layiqincə təmsil edəcəyəm!", - deyən deputat ləyaqəti olmadan, yəni şəxsi tarlaları ilə, Mehdiabad qəsəbəsində, paytaxtın mərkəzində yeni mənzillər əldə etməklə, Hacıyevadan Hacıbəyliyə çevrilən zəngin regionu təmsil etməyə başladı.

Əvvəl şəxsiyyət, sonra siyasət...

Bəli, ancaq G.Hacıbəyli kimi rəzil qadın həmişəki kimi yenə də "maskalandı". Üçüncü dəfə Goranboydan deputatlığa seçilə bilmədikdə "Yorulmuşam, siyasətdən gedirəm" dedi. Amma Hacıbəyli çoxlarının gözlədiyi kimi, siyasətdən getmədi. O özünü elmə də həsr etmədi - onun elmlə işi yoxdur, çünki elm narsisizm və eqosentrizmi inkar edir, insan özünü bu işə tamamilə həsr etməlidir. O siyasətə qayıtdı, amma əvvəl "bəyli" sonluğunu atmaqla "özünə layiq siyasətə" qayıtdı. Əgər əvvəllər o öz prezidenti ilə fəxr edirdisə, bu gün o qərb liderləri ilə fəxr edir. Əgər əvvəl unikal Azərbaycan modelindən danışırdısa, bu gün fədakarlıqla xidmət etdiyi hakimiyyəti ittiham edir. Əgər əvvəl onun bəyanatları - ölkəmizdə siyasi dustaq yoxdur - sovet ruhunda olurdusa, bu gün "siyasi dustaqların" əzabları onu yumşaldır. Bax, budur Gültəkinin maskası. Bu gün bu min bir maskası olan Gültəkin sosial şəbəkələrdən bu qalib dövləti, hakimiyyəti, xalqı, ordumuzu, şəhidlərimizi hədələməsi bir daha G.Hacıbəylinin nə qədər mənəviyyatsız olduğunu göstərir.

Gültəkin Hacıbəyli kimilərin əsl üzü - "Vətən üçün pis olan, mənə faydalıdır".

Belə bir deyim var: "Əslində, siyasət çirkin deyil, onunla çirkin insanlar məşğul olanda çirkin olur". Bu gün Azərbaycana nifrət edən G.Hacıbəyli kimilərin əsl üzü budur - "Vətən üçün pis olan, mənə faydalıdır". Onlar şəxsi maraqlarını dövlətin və xalqın maraqlarından üstün tutduqları üçün mənəvi nöqteyi-nəzərdən xəyanətkardan və fərarıdən başqa bir şey deyil.

Bəzən istəyirsən ki, Samuel Consonun hələ 1775-ci ildə dediyi, sonradan isə Tolstoyun adına çıxılan bu sözləri xatırladasan: "Vətənpərvərlik yaramazların son sığınacaq yerinə çox tez-tez çevrilir".

Bütün arqumentləri qurtaran adamlar sadəcə yalan danışmağa, özlərini şəxsi ambisiyaları barədə yox, yalnız xalq, onun rifahı barədə düşünən millət xilaskarı kimi göstərməyə başlayırlar. Son illərin siyasi burulğanları zamanı yüzlərlə belə adam görmüşük. Bizim dırnaqarası xilaskarlar da onların biridir...

Buna əmin olmaq üçün onların çıxışlarından parçalara baxmaq kifayətdir. Məsələn, G.Hacıbəyli yazır: "Biz birinci olmalıyıq", "ən ləyaqətlilər bizik", "ən parlaq şəxsiyyətlər bizik". Əgər burada "parlaq" sözünün yerinə "müqəddəs" sözünü yazsaydı, ambisiya və hikkənin real səviyyəsi özünü daha qabarıq göstərərdi. Özünü ziyalılar zümrəsinə aid edən Hacıbəyli daha sonra yazır: "Biz millətin vicdanıyıq, onun mənəvi etalonuyuq".

Hacıbəylinin çıxışlarında xeyli belə özünəvurğunluq elementləri var. Əgər Hacıbəyliyə elə gəlirsə ki, özünə verdiyi bu qeyri-adekvat qiyməti "peşəkarcasına" şişirdə bilib, möhkəm yanılır. Çünki G.Hacıbəyli kimilər reallıqda kimsəyə lazım deyillər, istifadə olunduqdan sonra kənara atılanlardır. Azərbaycan isə müstəqillik, demokratiya yolunu davam etdirərək, daha böyük uğurlar qazanacaq bütün torpaqlarımız işğaldan azad olunacaq, Xankəndidə, Şuşada, Laçında, Qubadlıda, Ağdamda, Füzulidə, Zəngilanda, Hadrudda...dalğalanan bayrağımız dalğalanacaq! O bayrağa baxan xalq üçün radikal müxalifət deyilən bir "varlıq" isə çoxdan mövcud deyil! Çünki əsl həqiqət o bayraqda və onu oraya sancan vətənpərvərlərdədir!

**Rəfiqə HÜSEYNOVA**

# Natalia Vovk cinayətə məcbur edilib..?

*Natalia Vovkun qohumları Daria Duginanın qətlinə işıq saldılar*

***Daria Duginanın avtomobilini partlatmaqda ittiham olunan qızın- Natalia Vovkun valideynləri varislərinin günahkar olduğuna inanmaqdan imtina edirlər.***





Maraqlıdır ki, Vovkun bəzi qohumları isə onun cinayəti törətməyə məcbur edildiyini bildirirlər. Onların sözlərinə görə, Ukrayna Təhlükəsizlik Xidməti Vovkun oğlunu girov götürüb və onu öz qaydaları ilə oynamağa məcbur ediblər. SİA-nın da əldə etdiyi məlumata görə, guya təfərrüatlar hələ rusiyalı müstəntiqlər tərəfindən dəqiqləşdirilməyib.

"...Onun Estoniyada olduğunu biləndə, bu mənim üçün şok oldu. Mən ona yazdım ki, "qızım, bu doğru deyil. Mən buna inanmıram".

Qeyd edək ki, bunu Vovkun anası deyib.

Rus saytlarının yazdığına görə, rus tərəfi Natalya Vovkun Rusiya sərhədini necə keçdiyi, Moskva ətrafında necə hərəkət etdiyi və hətta qurbanının yaşadığı binada mənzil kirayələdiyi barədə də məlumatlıdır.

Deyilənə görə, Natalya Vovk işdən çıxana qədər, Ukrayna hərbi hissəsində sadəcə ofis işçisi olub. Amma aylıq kirayə haqqının 170 min rubla çata biləcəyi Moskvadakı elit binada mənzil kirayələmək imkanı... ofis işçisi üçün əlçatan deyil. Maraqlıdır ki, Natalya Vovkun atası onun Ukrayna Silahlı Qüvvələrində xidmət etdikdən sonra onun işə götürülə biləcəyini də düşünür.

Bu arada onun əmisi oğlu da öz versiyasını irəli sürür. Onun dediyinə görə, Natalia Ukrayna Təhlükəsizlik Xidməti və hərbçilərin qarmaqlarında idi. Axı onun ilk evliliyindən olan oğlu Danila Şaban Ukrayna Silahlı Qüvvələrinin sıralarında Dəniz Piyadaları Korpusunun komandiri kimi xidmət edir.

Qonşular isə belə hesab edirlər ki, Vovka məhz onun oğlu vasitəsilə təzyiq oluna bilər.

...Amma Daria Duginanın qətlinin təfərrüatları ilə bağlı hələ də suallar var. Natalya Vovk Ukrayna Silahlı Qüvvələri ilə bütün əlaqələrini nəzərə alaraq, Rusiyaya xəbərsiz girib, cinayət törədib, sonra da problemsiz ölkəni necə tərk edə bilib?

Rus saytlarının yazdığına görə, artıq Avropada Vovkun izi itməyə başlayıb. Belə ki, əvvəlcə onun Estoniyada olduğu deyilirdi. Sonra o, Avstriyada göründü. Belə görünür ki, bu gün Avropa dövlətlərindən kömək gözləmək lazım gəlməyəcək.

Qeyd edək ki, bu arada Estoniya FSB-nin bəyanatlarını Rusiya Federasiyasının təxribatı kimi qiymətləndirir. Maraqlıdır ki, ruslar Estoniyanın buna görə cavab verəcəyini deyirlər.

...Belə görünür ki, rusların da deyəsən ancaq milyon yarımdan bir az artıq əhalisi olan estonlara gücü çatır?

Amma yenə də rus saytlarına inansaq Vovkun indi harada görünüb-görünməyəcəyi və ümumiyyətlə sağ qalıb-qalmaması açıq sual altındadır. Niyə? Ruslar bunun da cavabını verirlər. Onlara görə, Vovkun mövcudluğu faktı indi Kiyev rejimi üçün çox əlverişsizdir.

**Ağasəf Babayev**

# Uşaqları açıq-saçıq geyindirmək düzgündür?



"Uşaqlarda şəxsiyyətin formalaşması 3 yaşında özünü büruzə verir. Bu yaşdakı uşağın inkişafında nəzərə çarpan tipik xüsusiyyətlər meydana gəlməyə başlayır. Hansı ki, bu, ətraf aləmin təsiri nəticəsində istər parlaq geyimlərə aid olan düşüncələrin yaranması, istər al-əlvan rəngli oyuncaqların onların diqqətini daha tez cəlb etməsidir". Bu fikirləri SİA-ya açıqlamasında psixoloq Aytən Ələkbərova bildirib.

Onun sözlərinə görə, biz bu gedişlə uşağın yeniyetməlik dövrünə hazırlığının ilk mərhələsini görürük: "Hansı ki, həmin zamanlarda uşaqlarda təxəyyül onların müəyyən təsəvvür ehtiyatlarına yiyələndikdən sonra inkişaf edir ki, bu təsəvvür ehtiyatının içərisində geyim xüsusi yer tutur. Bir yaşla üç yaş arasında olan müddətdə demək olar ki, uşaqlarda təxəyyülün təcrübəyə, mühitə, geyimlərə, rənglərə olan marağı daha qabarıq özünü büruzə verir. Bəzən görürük ki, müəyyən yaşda olan qızlar açıq-saçıq geyinir və izah olaraq da bildirirlər ki, mən uşaqlıqdan belə geyinirəm və bunun əxlaqi dəyərlə heç bir əlaqəsinin olmadığını rahatlıqla bildirir. Bu baxımdan görürük ki, qız uşaqları müəyyən yaşı geçdikdən sonra ailə həyatı qurmağa hazırlaşanda müəyyən problemlərə gətirib çıxarır.

Müəyyən yaş dövründə təbii ki, oğlan uşaqları valideynləri tərəfindən körpə olduğu üçün dar və qısa geyindirilir. 2-3 yaşlı uşağın illustrasiyaları var ki, onlar kiçik həcmli nağılları təsəvvür edə bilir. Bu uşaq təxəyyülün ilk təzahürləri olduğu üçün həmin dövrdə geyindikləri geyimə görə gələcəkdə onların geyimlə bağlı düşüncələrində müəyyən çatışmazlıqlar ola bilir. Və düşünürlər ki, uşaq vaxtı dar və ya qısa geyinmişəm burada nə var ki? Amma valideynlər oğlan uşaqlarının təxəyyülündə yarada bilər ki, oğlanlar necə paltarlar geyinir, qızlar necə geyinir. Bu da onların gələcəkdə düzgün geyimlərdən istifadə etməsinə kömək edir, yəni dar və ya qısa xoşagəlməz görünən geyimlərdən uzaq durur. Kiçik yaşlı uşaqlarda məsuliyyət hissinin inkişafına da təsadüf edirik. Biz onların bu hissini üzə çıxardıqca onlar üzərinə düşən işi daha layiqincə yerinə yetirməyə çalışacaqlar. Anlayırlar ki, hansı geyimi geyinmək daha uyğundur".

**Abutel İlhamqızı**

# “Qarabağın qalan hissəsi Azərbaycanın nəzarətinə qayıdacaq”

***Ermənistanın Müstəqillik Bəyannaməsinin qəbul edildiyi gün həm hakimiyyət, həm də müxalifət bir sıra bəyanatlarla çıxış edib. Xüsusilə, Ermənistanın baş naziri Nikol Paşinyan 32 il əvvəl sənədin qəbulu ilə bağlı müraciətində ölkənin müstəqilliyi ilə bağlı bu və ya digər şəkildə bir sıra problemli reallıqları qeyd edib. Bəyanatlarda ölkənin təhlükəsizliyi və müstəqilliyi Ermənistan-Azərbaycan nizamlanması və Qarabağ ətrafındakı vəziyyətlə əlaqələndirilib və açıq formada tərəfdaşlar qınanıb.***

Rusiyalı politoloq Aleksandr Razuvayev ”Moskva-Baku” portalına açıqlamalarını erməni tərəfin bəyanatlarını və regiondakı vəziyyəti şərh edib. Müsahibəni oxucularımıza təqdim edirik.

**- Aleksandr Yuryeviç, Nikol Paşinyanın bəyanatında Ermənistanın müstəqillik problemlərinin şərhini siz necə deşifrə edirsiniz?**

- Əvvəla onu deyim ki, 1991-ci ildə SSRİ-nin saxlanması ilə bağlı referendum olanda Ermənistanda referendum yox idi, yalnız hərbi bazalar haqqında oldu. Aydındır ki, Sovet İttifaqının dağılmasında erməni millətçiliyi və separatizminin çox böyük rolu olmuşdur.

İkincisi, Paşinyanın qonşularla bağlı bəyanatından danışırıqsa, qonşular dövlətlə həmsərhəd olanlardır. Ermənistanın baş naziri deyib ki, onun ölkəsi əksər qonşu dövlətlərlə ”əla” münasibətlərə malikdir. Amma bu, profanasiyadır, Ermənistanda Paşinyanın dediyi kimi, bu çox ”möhtəşəm” münasibətlər yoxdur. İran, Gürcüstanla normal münasibətlər var. Azərbaycan və Türkiyə ilə isə yoxdur. Ermənistanın bir çox qonşularına qarşı ərazi iddiaları olub və indi də var. Ola bilsin ki, Ermənistan ayılmalı, daha yaxşı düşünməli və nəhayət, məhz bu qonşularla münasibətləri normallaşdırmalıdır, xüsusən də, bunun iqtisadi baxımdan sərfəli olduğunu nəzərə alsaq.

Qonşular haqqında isə... Rusiya Qarabağın Azərbaycan olduğunu tanıyır. Ermənistan Avrasiya İttifaqına daxil olanda Qazaxıstanın o vaxtkı prezidenti olan cənab Nazarbayev Qarabağdan bəhs etmədən Ermənistanın AİI-yə daxil olmasını təkid edirdi. Ermənistan özü də separatçı Qarabağı tanımırdı. Və nəsə tələb edir.

Paşinyan Ermənistanın Rusiyanın müttəfiqi olduğuna eyham vurur, lakin açıqlama və narazılıq tələb edən bəyanatla Rusiya Federasiyasının Ermənistanın müttəfiqi kimi başqa müttəfiqlərinin də olduğunu bildirir, Azərbaycanla bu il imzalanmış Müttəfiq Əməkdaşlıq haqqında Bəyannaməni nəzərdə tutur. Həmçinin Rusiya və Azərbaycan liderlərinin qarşılıqlı əlaqəsini. Rusiya Azərbaycanla, bütövlükdə türk dünyası ilə dava etməyəcək, bu onun nəyinə lazımdır? Tam əksinə, əməkdaşlıq edir. Biz buna misal olaraq Rusiyanın Türkiyə ilə münasibətlərini - iqtisadi və digər əməkdaşlığı görürük. Rusiya özü də türk dünyasının bir parçasıdır.

Ümumiyyətlə, Paşinyanın bəyanatı ölkə üçün hər şeyin niyə belə yaxşı getmədiyini, üzr istəyirəm, ”hamı bizi tərk etdi, bizi çıxılmaz vəziyyətə saldı” deyərək beynəlxalq mexanizmlərə haqq qazandırmaq təəssüratı yaradır - görünür, ATƏT-in Minsk qrupuna istinad edir. ”KTMT-də belə müttəfiqlərimiz yoxdur və bizə axınla getmək və hər gün müstəqilliyimizi müdafiə etməkdən başqa heç nə qalmayıb”- demək istəyir. Bu, erməni əhalisinə mesajdır.



*Aleksandr Razuvayev: "Ermənilərin Qarabağdakı davranışı barbarlıqdır, millətçilik və nifrət həmişə gücsüzdür"*

Əslində, keçmiş Sovet respublikalarından yalnız Rusiya, Azərbaycan və Qazaxıstan özlərini həqiqi müstəqil, suveren dövlətlər kimi tam təsdiq ediblər.

Ermənistan isə müəyyən mənada xaricdəki diasporundan asılıdır, bu gün onun köklü ölkə olduğunu söyləmək mümkün deyil. Ermənistanın ən böyük problemi onun öz keçmişində yaşamasıdır, çox vaxt bu mifikdir. Dağıdıcı İkinci Qarabağ Müharibəsindən sonra hələ də qisasçılıqla yaşayır. İntiqam, təbii ki... o halda mümkündür ki, onun üçün resurs və qüvvələr olsun - hərbi, siyasi, iqtisadi.

Mən heç kimi incitmək istəmirəm- pis dövlət odur ki, vətəndaşların işlə təmin edə bilmir. Ona görə də Ermənistandan olan əmək miqrantları kütləvi şəkildə xaricə-ilk növbədə, Rusiyaya işləmək üçün gedirlərsə, deməli, insanlar öz ölkələrində normal iş tapa bilmirlər. Bunlar sizin vətəndaşlarınızdır. Necə ölkə qurmusan ki, vətəndaşların xaricdə hardasa fəhlə işləməyə məcbur olsunlar. Nəticə - Ermənistan iqtisadiyyatı böyük dərəcədə miqrantlardan, eləcə də turizmdən asılıdır. Fransa və ABŞ-dakı diaspora rəğmən Ermənistanın ciddi maliyyə resursu yoxdur.

Çox şey iqtisadiyyatdan asılıdır. Nə isə, mənim nöqteyi-nəzərimə görə, onlar yalnız qonşuları ilə münasibətləri normallaşdırmaqla, Rusiya ilə konstruktiv münasibətlər qurmaqla vəziyyəti dəyişə bilərlər.

Rəsmi İrəvan bugünkü açıqlamaları ilə inciyənin mövqeyini təqdim etmək istəyir: bizi incitdilər, bizi belə bir çərçivəyə saldılar və s. Ancaq ümumiyyətlə bunu edə bilməzsiniz. Bu, ilk növbədə zəif dövlətin zəif liderinin zəif mövqeyidir.

Belə çıxır ki, Ermənistanın ətrafında hamı günahkardır, amma o deyil. Günahlandıracaq birini axtarmaq, bütün günahı üstünə atacaq birini axtarmaq. Və bütöv bir siyahı ortaya çıxır- hər kəs günahkardır. Və biz belə sevimliyik. Ancaq eyni zamanda, biz çox böyükük, hər şeyi ödəyə bilərik - hətta bu, istənilən qaydalardan, beynəlxalq hüquqdan kənara çıxırsa belə hamı bizi sevməlidir və hamı bizə borcludur.

Yadımdadır, bir neçə dəfə necə oldu - rəsmi İrəvan qəzəbləndi: KTMT ölkələrinin liderləri Putin və Lukaşenko Təşkilata daxil olmayan dövlətin lideri Əliyevə silah satırlar- dəhşət. Heç kimin sənə borcu yoxdur. Amma Ermənistanda hesab edirlər ki, hamı onlara borcludur. Bəli, Paşinyandan əvvəl də belə idi. Həmişə belə olub. Zəiflik- hər kəsin onları incitdiyi, hamının pis olduğunu və başqalarının qurbanı olduğunu qışqırmaq. Belə mövqe hörmətə layiq deyil, bu, kişi mövqeyi deyil.

**- Amma yenə də Paşinyanın bu ”əsaslandırıcı” bəyanatlarında Azərbaycanla sülhə doğru davam edən tendensiya var...**

- Müəyyən dərəcədə, bəli. Amma Paşinyan bunu ilk növbədə öz xalqı üçün deyib. Bu, onların informasiya sahəsi, duyğularıdır. Və bu emosiya onlar üçün o qədər vacibdir ki, onu xaricə yönəldirlər.

**- Ermənistan parlamentinin sədri bəyan etdi ki, ölkə ”müstəqillik uğrunda mübarizə aparacaq”. Müxalifət bir daha qorxudur ki, mümkün olan hər şey azərbaycanlılara və türklərə veriləcək...**

- Ermənistan formal olaraq müstəqil dövlətdir, lakin həm təhlükəsizlik, həm də iqtisadiyyat baxımından Rusiyadan çox asılıdır.

Tamamilə ”Bakıya və türklərə təslim olmaq” hekayəsi sadə əhali arasında təqib maniyasına və təlaşa səbəb olmaq istəyən siyasi oyundur. Eyni zamanda, Ermənistanda demək olar ki, il yarımdır ki, səslənən bütün bu bəyanatlara baxmayaraq, ümid edirəm ki, Ermənistanla Azərbaycan arasında sərhədin delimitasiyası və demarkasiyasına nail olmaq mümkün olacaq. Qarabağın qalan hissəsi Azərbaycanın nəzarətinə qayıdacaq. Bundan sonra ticarət yolları açılacaq. Və hər şey yaxşı olacaq, narahat olacaq bir şey yoxdur. Həmişə isterik gərginlik içində olmaqdansa, qonşu xalqların yaşayıb pul qazanması daha yaxşıdır.

**- Ötən gün Ermənistandakı radikallar Sürməlidəki ticarət meydançasında baş verən partlayışın arxasında Rusiyanın olduğunu dedilər... Yaxşı, prinsipcə, ”Ermənistanda anti-Rusiya çağırışları yenidən artıb...**

- Paşinyan millətçilərə qarışmaq istəmir, ona görə də millətçilərin açıqlamalarını şərhsiz qoyub. Millətçilik düşməni nəzərdə tutur. Azərbaycan və Türkiyə Ermənistan üçün başa düşüləndir. Amma Ermənistanda düşmən obrazları çoxdur. Burada Rusiya da var - düşmən.

Məsələn, Azərbaycanda çox böyük rus sektoru, böyük rus icması var. Ermənistanda isə rus sektoru yoxdur. Budur sizin ruslara münasibətiniz. İstədiyinizi deyə bilərsiniz, amma istənilən millətçilik kifayət qədər aqressivdir və yönəldiyi obyekti nəzərdə tutur. Belə olan halda Rusiya getdikcə belə bir obyektə çevrilir. Tezliklə, görünür, biz Azərbaycan və Türkiyə ilə bərabər nifrət zeminində yerləri bölüşəcəyik. Neçə dəfə belə hal olub ki, Rusiya səfirliyi çox yaxşı olmayan bəyanatlara cavab vermək məcburiyyətində qalıb. Məsələn, biolaboratoriyalar haqqında. Biolaboratoriyaların təhlükəli tarixçəsi var. Onlar təkcə Rusiya üçün deyil, həm də yerləşdikləri ölkələr üçün təhlükə yaradırlar. Müasir virusologiya çox irəli gedib və nə ilə qarşılaşacağımızı təsəvvür belə edə bilmirik.

Bununla belə, Nikol Paşinyan vaxtaşırı rus sülhməramlılarını tənqid edir. Ancaq başa düşmək lazımdır ki, bəyanatın imzalanması və Rusiya sülhməramlılarını gəlməsi Ermənistanı tam məğlubiyyətdən xilas etdi. Müharibə davam edə bilərdi. Rusiya onu sözün əsl mənasında xilas etdi və bizə minnətdar olmalıdırlar. Amma minnətdarlıq görmürük, əksinə tənqid.

**- Belə çıxır ki, İrəvan da Rusiya ilə münasibətləri manipulyasiya edir.**

- Bəli, amma o, Putinlə hansısa yolla razılığa gələcəklərinə inanır. Eyni zamanda, Paşinyan hakimiyyətdə qalmaq üçün daxili siyasi sahəsini əlində saxlamaq istəyir.

**- Dünən müxalifət lideri İşxan Saqatelyan yenidən etiraf etdi ki, Ermənistan cəmiyyəti müxalifətdən daha çox Paşinyanın mövqeyinin tərəfdarıdır. Bir variant varmı ki, müxalifət bir neçə aydır uğursuzluğa düçar olubsa, daha radikal üsullara keçsin?**

-Çətin. Hesab edirəm ki, Paşinyan davam gətirəcək və konkret problem olmayacaq. Digər tərəfdən, Ermənistanda həyat səviyyəsinin yaxşılaşmasını istəyirlərsə, diaspora pul ianə etməli, istehsal müəssisələri açmalıdır. Amma bunu etmirlər, ona görə də həyat səviyyəsi eyni qalır. Ən əsası isə, dediyim kimi, Ermənistan öz qonşuları ilə dostluq etməyə başlamalıdır. Nəqliyyat dəhlizlərini açın və s.

**- Laçın dəhlizi ətrafındakı vəziyyətlə bağlı. Azərbaycan alternativ yolu vaxtından əvvəl təhvil verib. Bunun mənası nədir?**

- Azərbaycanın sözünün üstündə duran məsuliyyətli ölkə olması və xarici siyasətinə, verdiyi vədlərə məsuliyyətlə yanaşması. Putin deyib ki, Əliyev və Ərdoğan sözünün üstündə durur.

Azərbaycan bununla da tərəfləri irəli getməyə sövq edir. Və buna göz yummaq olmaz və reallığın dəyişdiyinə cavab verməli olacaq. Azərbaycan yolu çəkib, indi hamı Ermənistanı gözləyir və onun fəallaşmaqdan, razılaşmaları yerinə yetirməkdən başqa heç bir konkret variantı yoxdur.

Bunun fonunda erməni əhalisinin Laçında evləri tərk etməzdən əvvəl ətrafdakı hər şeyi necə yandırdığını görürük. Bu, birinci dəfə deyil, Azərbaycana qarşı nifrətdən danışır. Bu barbar davranışdır. Və nifrət gücsüzdür. Bu da bir emosiyadır. Əslində, heç nəyi dəyişdirə bilmirsinizsə, hər şeyi sakit qəbul etməli və ləyaqətinizi qorumalısınız. Amma burada millətçilik oynayır. Onlar qurban olduqlarını göstərməyə çalışırlar. Amma elə deyil. Nə istəsən deyə bilərsən. Qurban rolu oynamaq zəifin mövqeyidir.

***Tərcümə - Elçin Bayramlı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*

SON SƏHİFƏ
SƏS
25 avqust
2022-ci il

# “Avtomobil sahibi açarı əmin olmadığı adama niyə verməlidir?!”



***“Maşınımızı icazəsiz sürüb qəza törətsələr, sığorta pulu kimdən alınmalıdır? Belə olan halda sığorta şirkətləri ödəniş həyata keçirirlər və sonradan həmin o icazəsiz avtomobili sürüb zərər vuran şəxsdən pulu geri alırlar". Bu sözləri SİA-ya açıqlamasında sığorta bazarı eksperti Əli Bayramov deyib.***

Onun sözlərinə görə, ümumiyyətlə, sığortaçılar avtomobil sahibinin həmin nəqliyyat vasitəsinin açarını kiməsə verməsini sevmirlər: "Çünki bu, risk amilidir. Hətta belə olan halda bir yanaşma var ki, əgər oğurluq olarsa, sığorta şirkətləri bundan imtina edirlər. Avtomobil sahibi açarı əmin olmadığı adama niyə verməlidir?!".

Əli Bayramov sözlərinə belə davam edib: "Digər tərəfdən, bizdə olan təcrübə belədir ki, məsələn, maşınımızı yuyulmağa, yaxud hər hansı təmir prosesinə veririk. Oradakı işçilər də qeyri-adekvat hərəkət edə bilirlər. Ən sivil yol odur ki, həmin o müəssisədə məsuliyyət sığortası olmalıdır ki, bu kimi hallarda həmin o məsuliyyət sığortasından istifadə edib qarşı tərəfə dəyən ziyanı ödəsinlər. Amma təbii ki, Azərbaycanda bu təcrübə yoxdur.

Əgər bu yol nəqliyyat hadisəsidirsə, sığorta şirkəti dəymiş zərəri ödəyir. Daha sonra isə zərər vermiş şəxsə qarşı iddia qaldıraraq dəymiş zərər məbləğini geri tələb edirlər".

***Ayşən Vəli***

# Avropada son 500 ilin ən quraqlıq dövrü...

***Avropada son 500 ilin ən quraqlıq dövrü müşahidə olunur. Belə ki, Avropa Komissiyasının Birgə Araşdırmalar Mərkəzinin ekspertlərinin hazırladığı hesabatda iyul ayında qitədə quraqlığın təhlükəli səviyyəyə çatdığı bildirilib. Hesabatda Avropa İttifaqı (Aİ) torpaqlarının 47 faizində quraqlığın təhlükəli səviyyəyə çatdığı, Aİ-nin 17 faizində isə həyəcanverici səviyyədə olduğu vurğulanıb.***



Ekspertlərin fikrincə, davam edən quraqlıq son 500 ilin ən quraq dövrü hesab olunur. Quraqlıq səbəbindən qitədə qarğıdalı, soya və günəbaxan istehsalının son 5 ilin orta göstəricisindən 15 faiz az olacağı gözlənilir. Bildirilib ki, yağıntıların olmaması Avropa çaylarında suyun səviyyəsini aşağı salıb, su elektrik stansiyalarında enerji istehsalı azalıb, bu vəziyyət digər elektrik stansiyalarının soyutma sistemlərinə və çay nəqliyyatına mənfi təsir göstərib.

Hesabatda xüsusilə Qərbi Aralıq dənizi bölgəsi üçün xəbərdarlıq edilib, anomal istilərin və quraqlığın cari ilin noyabr ayına qədər davam edəcəyi vurğulanıb.

# D vitamini əksikliyi uşaqlarda nələrə səbəb olur?



***“Süd və süd məhsulları, banan, kəsmik, yumurta, balıq və balıq məhsulları, dana əti, ispanaq və bu kimi qidalar D vitamini ilə zəngindir. Körpə doğulandan 15 gün sonra müntəzəm olaraq D vitamini qəbul etməlidir". Bu fikirləri SİA-ya açıqlamasında pediatr Sevda Novruzova bildirib.***

Onun sözlərinə görə, D vitaminin əskikliyi körpələrdə tərləmə ilə müşahidə olunur: "Tərləmə zamanı ənsə nahiyəsin yastığa sürtünməsi nəticəsində saçların aypara şəklində tökülməsi müşahidə olunur. Baş ölçüləri böyüyür, alın qabarları qabağa çıxır. Bu raxitin ilkin əlaməti olaraq müşahidə olunmağa başlayır. Sonrakı dövrlərdə isə döş qəfəsinin ölçüsünün böyüməsi, qabırğalar üzərində muncuqlar şəklində hündürləşmə müşahidə olunur. Eyni zamanda, bu, bilək nahiyəsində bilərzik şəklində də müşahidə olunur. Daxili orqanların ağrılığına tab gətirməyib aşağı ətraflarda "x", yaxud da "o" şəklində əyilmələr baş verir.




Yuxarı yaşlı insanlarda da, xüsusilə, klemakterik dövründəki qadınlar da D vitamini əskikliyi müşahidə olunur. Bu zaman təbii ki, yenə ayaqların əyilməsi, ayaqlarda ağrılar, əzələ və sümük ağrıları kimi hallar baş verir.

Xroniki mədə-bağırsaq sisteminin pozğunluqlarında, kifayət qədər ultrabənövşəyi şüalar qəbul olunmadıqda, soyuq iqlim şəraiti olan ölkəkərin insanlarında, öd kisəsi əməliyyatlarından sonra, troid vəzinin funksional pozğunluğu zamanı D vitamini çatışmazlığı yaranır".

***Abutel İlhamqızı***

# Məşhur aktrisa bu rolu canlandıracaq



Məşhur türk aktrisa Dilan Çiçək Dəniz Avstriya bəstəkarı Volfqanq Amadey Motsartın həyatından bəhs edən "Amadeus" tamaşasının komandasına qatılıb. SİA xarici mətbuata istinadən xəbər verir ki, Motsartın həyat yoldaşı Konstanze obrazını canlandıran Özlem Öçalmazın köçməsi ilə aktrisa yeni mövsümdə bu rolu üzərinə götürəcək.

Selçuk Metodla baş rolu paylaşan və Amadeus filmində Motsart obrazını canlandıran Okan Bayülgen də ayrılıb və yerinə Tansu Biçer gətirilib.

***Ayşən Vəli***

**Baş redaktor:**
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3600**